Şübhələrə cavab silsiləsindən

# Kərbəla Torpağının Şəfası



WWW.313NEWS.NET

Şübhələrə cavab silsiləsindən

# KƏRBƏLA TORPAĞININ ŞƏFASI

**Vəliyyi-əsr müəssisəsi və alkafi.net saytının materialları əsasında**

*Tərcümə: Fərhad Mirzə*

*Tərtib və texniki redaktor: 313news.net*

*alkafi.net saytının materiallarının tərcüməsində və ədəbi redaktəsində göstərdikləri əvəzsiz köməyə görə Fəqan qardaşımıza və Ağabala Mehdiyevə dərin təşəkkürümüzü bildiririk.*

**BAKI 2013**

Sələfi saytları və TV kanallarında tez-tez müşahidə edilir ki, İmam Hüseynin (ə) türbətinin hər dərdin şəfası olmasına şiələrin etiqad bəsləmələri şirk amili və gülüş obyekti kimi təqdim edilir. Onlar sual verirlər ki, əgər doğrudan da belədirsə niyə həkimə müraciət edirsiniz? Niyə Ayətullah Sistani xəstəliyinin müalicəsi üçün Avropa ölkələrinə getdi? Niyə siz öz xəstəxana və klinikalarınızı bağlamırsınız?

Həmin bu iddianın səsləndiyi verilişlərdən birini yükləmək üçün www.valiasr-aj.com saytına[1] müraciət edə bilərsiniz.

## Şəfa ilə dəvanın fərqi

Təəssüflər olsun ki, bu sələfi eksperti şəfa ilə dəvanı bir-birindən ayıra bilməyib. Əgər belə olmasaydı o belə səhvə yol verməzdi.

Şübhə yoxdur ki, şəfa Allahın əlindədir. O, həmin Allahdır ki, bəzi şeylərdə şəfa qoymuşdur. O cümlədən Quranda, balda... həmçinin də Kərbəla türbətində.

Şəfa lüğətdə yetişmək və təkmilləşmək deməkdir. Onun mənasının bir növü də məsdərlik hasil edir və belə demək olar ki, şəfa bir işdir ki, onun gəlməsilə xəstəlik sona yetir. Rağıb İsfənahi də öz «Müfrədat» kitabında bu mənaya işarə etmişdir.[2]

Amma cəmi «ادويه» «ədviyə» olan «دوا» «dəva» kəlməsinə gəlincə, xəstəlikləri onunla müalicə edən hər bir şeyə dəva deyilir.

**دواء : مايتداوي به، و «دَاوَاهُ» عالجه:**

*«Dəva», cəm şəkli «ədviyə» – ona deyilir ki, xəstəliklər onunla müalicə olunur.*[3]

Xülasə budur ki, şəfa tapmaq, yəni xəstəliyin sağalması müalicə yolu ilə də ola bilər, müalicəsiz və möcüzə və s. yolu ilə də ola bilər. Əlbəttə danışıqda biri digərinin də yerində işlənə bilər, lakin bu iki sözün həqiqi mənası bir-birindən fərqlidir.

---

[1] *http://valiasr-aj.com/image_user/shefa.flv*

[2] *Rağib İsfəhani, Müfrədatın tərcüməsi, c.2, s.337*

[3] *Fərhənge əbcədi ərəbi-farsi, 400-cü mətn*

## Kərbəla torpağı hər dərdin şəfasıdır

Dediyimiz kimi, Allah-Təala bu dünyada bəzi şeylərdə şəfa qərarlaşdırmışdır. Belə ki, onların sənəd və mənbələrini irəlidə qeyd edəcəyik. Əhli-beyt (ə) rəvayətlərinə uyğun olaraq, Allahın şəfa qoyduğu şeylərdən biri də müqəddəs Kərbəla torpağıdır. Çünki Allah-Təala İmam Hüseynin (ə) və onun vəfalı dostlarının canfəşanlığı və fədakarlığı səbəbinə bu effektiv xüsusiyyəti Kərbəla torpağında qoymuşdur.

## Şiə alimlərinin nəzərləri

Əhli-beytdən (ə) bu barədə varid olan rəvayətlər çoxdur, hətta təvatür həddindədir. Məsələnin bu rəvayətlər əsasında isbatı üçün bəzi böyük alimlərin nəzərlərini xatırladaq:

***Şeyx Məhəmməd Həsən əl-Cəvahiri***

**وعلى كل حال (فلا يحل شئ منه) أي الطين (عدا) الطين من (تربة الحسين ( عليه السلام ) فإنه يجوز الاستشفاء) به بلا خلاف بل الاجماع بقسميه عليه، بل النصوص فيه مستفيضة أو متواترة.**

*Hər halda İmam Hüseynin (ə) torpağından başqa heç bir torpağı yemək halal deyildir. Şəfa qəsdilə İmam Hüseynin (ə) torpağını yemək caizdir və bunda heç bir ixtilaf yoxdur. İcmanın hər iki qismi (ləfzi və mənəvi) də bu torpaqdan şəfa diləməyin caiz olmasına dəlalət edir. Buna dəlalət edən rəvayətlər də çox, və ya təvatür həddindədir.[4]*

***Şəhidi-Əvvəl, Məhəmməd bin Cəmal əd-Din əl-Məkki***

**أجمع الأصحاب على الاستشفاء بالتربة الحسينية صلوات الله على مشرفها، وعلى أفضلية التسبيح بها وبذلك أخبار متواترة.**

[4] *Şeyx Muhəmməd Həsən ən-Nəcəfi, Cövhər əl-kəlam fi şərh şəraih əl-islam, c.36, s.358*

*İmam Hüseynin (ə) türbətinin şəfa məqsədilə yeyilməsinə və ondan təsbeh düzəltməyin müstəhəb olmasına bütün alimlər icma etmişlər. Bu mətləbi isbat edən rəvayətlər də mütəvatirdir.[5]*

## Mühəqqiq əs-Səbzəvari

O da həmçinin öz «Kifayə əl-fiqh» kitabında alimlərin icmasını iddia etmişdir:

**ويستثنى من الطين المحرم التربة الحسينية ( عليه السلام ) للاستشفاء ... والأخبار في جواز أكلها للاستشفاء كثيرة. وعليه اتفاق الأصحاب.**

*Hər torpağı yemək haramdır. Amma bu qaydadan İmam Hüseynin (ə) torpağının şəfa qəsdilə yeyilməsi istisna olunmuşdur... Şəfa məqsədilə yeyilməsinə icazə verən hədislər çox saydadır və əshabımız (yəni, şiə alimləri) da buna icma etmişlər.[6]*

## Şeyx Hürr əl-Amili

O, öz «əl-Füsul əl-mühimmə» kitabının 11-ci babında - Hüseynin (ə) türbəti hər dərdə şəfadır! - deyə buyurmuşdur.

**اقول: و الاحاديث في ذلك كثيره جدا.**

*Mən deyirəm: Bu barədə daha çox hədis varid olmuşdur.[7]*

## Ayətullah Şeyx Hadi ən-Nəcəfi

**الروايات بهذا المضمون أعني: تربته ( عليه السلام ) شفاء من كل داء وأمان من كل خوف كثيرة جدا بل متواترة اجمالا بل معنا.**

*Bu - yəni, «İmam Hüseynin (ə) türbəti hər dərdin şəfası və hər qorxudan aman verəndir!» – məzmununda olan hədislər daha çoxdur. İcmali və mənəvi təvatürə malikdir.[8]*

## Ayətullah Seyyid Muhəmməd ər-Ruhani

---

[5] Şəhidi-Əvvəl Muhəmməd bin Cəmal əd-Din Məkki əl-Amili - (vəfat 786 h.), Kitab əd-Durus, c.2, s.25

[6] Mühəqqiq əs-Səbzəvari, Kifayə əl-fiqh, c.2, s.611-612

[7] Hürr əl-Amili, əl-Fusul əl-muhimmə fi usul əl-Əimmə, c.3, s.34

[8] Şeyx Hadi ən-Nəcəfi, Mövsuat əhadis Əhl əl-Beyt (ə.s), c.2, s.152

الاستشفاء بتربة الحسين – عليه السلام – وكيف كان فلا يحمل شئ من الطين ( عدا اليسير من تربة الحسين – عليه السلام – للاستشفاء ) فإنه يجوز بلا خلاف بل الاجماع بقسميه عليه والنصوص به مستفيضة أو متواترة.

*İmam Hüseynin (ə) türbətindən şəfa tapmaq üçün az miqdarda istifadə etmək caizdir və bu məsələdə heç bir ixtilaf yoxdur. Bundan icma hər iki qismi ilə mövcuddur və ona dələlət edən rəvayətlər də çox, və ya mütəvatirdir.*[9]

## Kərbəla torpağının şəfa olması rəvayətlərdə

Bu barədə rəvayətlər həddən artıq çox olduğu üçün biz sadəcə bir qismini diqqətinizə çatdırmaq istəyirik.

### Səd bin Sədin rəvayəti

عَنْ سَعْدِ بْنِ سَعْدٍ قَالَ: سَأَلْتُ أَبَا الْحَسَنِ عليه السلام عَنِ الطِّينِ فَقَالَ أَكْلُ الطِّينِ حَرَامٌ مِثْلُ الْمَيْتَةِ وَ الدَّمِ وَ لَحْمِ الْخِنْزِيرِ إِلَّا طِينَ قَبْرِ الْحُسَيْنِ عليه السلام فَإِنَّ فِيهِ شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ أَمْناً مِنْ كُلِّ خَوْفٍ.

*Səd bin Səddən rəvayət olunur ki, dedi: İmam Musa Kazımdan (ə) torpağın yeyilməsinin haramlığı barədə soruşdum. Buyurdu: «Torpaq yemək haramdır. Çünki onun haramlığı meytə (özü ölmüş və ya şəri qanunla kəsilməyən heyvan), qan və donuz əti kimi haramdır. İmam Hüseynin (ə) qəbrinin torpağı isə istisnadır. Çünki onda hər bir dərd üçün şəfa və hər bir qorxu üçün aman vardır.»*[10]

### Muhəmməd bin İsmayılın rəvayəti

عَنْ مُحَمَّدِ بْنِ إِسْمَاعِيلَ الْبَصْرِيِّ وَ لَقَبُهُ فَهْدٌ عَنْ بَعْضِ رِجَالِهِ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ: طِينُ قَبْرِ الْحُسَيْنِ عليه السلام شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ .

*«Fəhd» ləqəbilə tanınan Muhəmməd bin İsmayıl əl-Bəsridən, o da adamlarından birindən, o da İmam Sadiqdən (ə) rəvayət edir ki,*

[9] *Seyyid Muhəmməd Sadiq ər-Ruhani, Fiqh əs-Sadiq, c.24, s.172*
[10] *Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.478*

*buyurur: «İmam Hüseynin (ə) qəbrinin torpağı hər dərdin şəfasıdır.»[11]*

## Süleyman bin Ömər əs-Sərracın rəvayəti

**عَنْ سُلَيْمَانَ بْنِ عُمَرَ السَّرَّاجِ عَنْ بَعْضِ أَصْحَابِنَا قَالَ: يُؤْخَذُ طِينُ قَبْرِ الْحُسَيْنِ عليه السلام مِنْ عِنْدِ الْقَبْرِ عَلَى سَبْعِينَ ذِرَاعاً.**

*Süleyman bin Ömər əs-Sərracdan, o da əshabımızdan birindən belə rəvayət edir: «İmam Hüseynin (ə) torpağı qəbrin yetmiş ziralığından (1 zira = 1 dirsək) götürülür.»[12]*

## Məhəmməd ibn Süleyman əl-Bəsrinin rəvayəti

**عَنْ مُحَمَّدِ بْنِ سُلَيْمَانَ الْبَصْرِيِّ عَنْ أَبِيهِ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ: فِي طِينِ قَبْرِ الْحُسَيْنِ عليه السلام الشِّفَاءُ مِنْ كُلِّ دَاءٍ وَ هُوَ الدَّوَاءُ الْأَكْبَرُ.**

*Muhəmməd bin Süleyman əl-Bəsri atasından, o da İmam Sadiqdən (ə) rəvayət edir ki, o Həzrət (ə) buyurdu: «İmam Hüseynin (ə) torpağında hər bir dərdin şəfası var və o torpaq böyük dərmandır.»[13]*

## Əbu əs-Səbbah əl-Kinaninin rəvayəti

**عَنْ أَبِي الصَّبَّاحِ الْكِنَانِيِّ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ: طِينُ قَبْرِ الْحُسَيْنِ عليه السلام فِيهِ شِفَاءٌ وَ إِنْ أُخِذَ عَلَى رَأْسِ مِيلٍ.**

*Əbu əs-Səbbah əl-Kinani İmam Sadiqdən (ə) rəvayət edir ki, o Həzrət (ə) buyurdu: «Qəbrin bir mil (min altı yüz doqquz metr) məsafəsindən götürülsə belə, İmam Hüseynin (ə) qəbrinin torpağında şəfa var.»[14]*

## Abdullah bin Sinanın rəvayəti

**عَنْ عَبْدِ اللَّهِ بْنِ سِنَانٍ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ: إِذَا تَنَاوَلَ أَحَدُكُمْ مِنْ طِينِ قَبْرِ الْحُسَيْنِ عليه السلام فَلْيَقُلْ اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ بِحَقِّ الْمَلَكِ الَّذِي تَنَاوَلَهُ– وَ الرَّسُولِ الَّذِي بَوَّأَهُ وَ الْوَصِيِّ الَّذِي ضُمِّنَ فِيهِ أَنْ تَجْعَلَهُ شِفَاءً مِنْ كُلِّ دَاءٍ....**

---

[11] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.461

[12] Əbu Cəfər əl-Kuleyni, Üsul min əl-Kafi, c.4, s.588

[13] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.462

[14] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.462

*Abdullah bin Sinan İmam Sadiqdən (ə) rəvayət edir ki, o Həzrət (ə) buyurub: «Sizdən biriniz İmam Hüseynin (ə) qəbrinin torpağından yediyi zaman desin: İlahi mən səndən onu yeyən mələyə xatir, orda sakin olmuş Rəsula xatir və orda zəmanət edilmiş vəsiyyə xatir onun hər dərdə şəfa olmasını istəyirəm...»*[15]

## Əbu Yəhya əl-Vasitinin rəvayəti

**عَنْ أَبِي يَحْيَى الْوَاسِطِيِّ عَنْ رَجُلٍ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ: الطِّينُ كُلُّهُ حَرَامٌ كَلَحْمِ الْخِنْزِيرِ وَ مَنْ أَكَلَهُ ثُمَّ مَاتَ مِنْهُ لَمْ أُصَلِّ عَلَيْهِ إِلَّا طِينَ قَبْرِ الْحُسَيْنِ عليه السلام فَإِنَّ فِيهِ شِفَاءً مِنْ كُلِّ دَاءٍ**

*Əbu Yəhya əl-Vasiti bir kişidən, o da İmam Sadiqdən (ə) rəvayət edir ki, İmam (ə) buyurdu: «Bütün torpaqlar donuz əti kimi haramdır. Kim torpaq yeyib ölərsə, mən ona meyit namazı qılmaram. Lakin İmam Hüseynin (ə) qəbrinin torpağı istisnadır, çünki onda hər dərdin şəfası vardır.»*[16]

## Cabir bin Yəzid əl-Cufinin rəvayəti

**عَنْ جَابِرِ بْنِ يَزِيدَ الْجُعْفِيِّ قَالَ سَمِعْتُ أَبَا جَعْفَرٍ مُحَمَّدَ بْنَ عَلِيٍّ عليه السلام يَقُولُ: طِينُ قَبْرِ الْحُسَيْنِ عليه السلام شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ وَ أَمَانٌ مِنْ كُلِّ خَوْفٍ وَ هُوَ لِمَا أُخِذَ لَه.**

*Cabir bin Yeziddən rəvayət olunur ki, dedi: İmam Muhəmməd əl-Baqirdən (ə) eşitdim ki, belə buyurdu: «İmam Hüseynin (ə) qəbrinin torpağı hər dərdin dərmanıdır, hər qorxunun amanıdır və nə niyyətə yeyilirsə, o niyyət gerçəkləşir.»*[17]

## Əbu Bəkr əl-Həzrəminin rəvayəti

**وَ رَوَى أَبُو بَكْرٍ الْحَضْرَمِيُّ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ لَوْ أَنَّ مَرِيضاً مِنَ الْمُؤْمِنِينَ يَعْرِفُ حَقَّ أَبِي عَبْدِ اللَّهِ عليه السلام وَ حُرْمَتَهُ أَخَذَ لَهُ مِنْ طِينِ قَبْرِ الْحُسَيْنِ عليه السلام مِثْلَ رَأْسِ الْأَنْمُلَةِ كَانَ لَهُ دَوَاءً وَ شِفَاء.**

*Əbu Bəkr əl-Həzrəmi İmam Sadiqdən (ə) rəvayət edir ki, o Həzrət (ə) buyurub: «İmam Hüseynin (ə) haqq-hörmətini tanıyan bir mömin*

---

[15] Əbul-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.469
[16] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.478
[17] Hürr əl-Amili, əl-Fusul əl-muhimmə fi usul əl-Əimmə, c.3, s.34

*xəstələnərsə, İmam Hüseynin (ə) qəbrinin torpağından baş barmağın ucu boyda belə torpaq götürsə, bu onun üçün dərman və şəfadır.»*[18]

## Muhəmməd bin Ziyadın rəvayəti

**عَنْ مُحَمَّدِ بْنِ زِيَادٍ عَنْ عَمَّتِهِ قُلْتُ سَمِعْتُ أَبَا عَبْدِ اللَّهِ عليه السلام يَقُولُ إِنَّ فِي طِينِالْحَائِرِ الَّذِي فِيهِ الْحُسَيْنُ عليه السلام شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ أَمَاناً مِنْ كُلِّ خَوْفٍ.**

*Muhəmməd bin Ziyad öz bibisindən rəvayət edir ki, dedi: İmam Sadiqdən (ə) belə buyurduğunu eşitdim: «İmam Hüseynin (ə) dəfn olunduğu Hair torpağında hər dərdin dərmanı və hər qorxunun amanı vardır.»*[19]

## Əbu əl-Yəsənin rəvayəti

**عَنْ أَبِي الْيَسَعِ قَالَ: سَأَلَ رَجُلٌ أَبَا عَبْدِ اللَّهِ عليه السلام قَالَ آخُذُ مِنْ طِينِ قَبْرِ الْحُسَيْنِ ع- يَكُونُ [عِنْدِي] أَطْلُبُ بَرَكَتَهُ قَالَ لَا بَأْسَ بِذَلِكَ.**

*Əbu əl-Yəsə rəvayət edir ki, bir kişi İmam Sadiqdən soruşdu: «Mən İmam Hüseynin (ə) qəbrinin torpağını götürüb üstümdə saxlayıram və onun bərəkətlərindən istifadə edirəm (bunun hökmü nədir?)» İmam buyurdu: «Heç bir eybi yoxdur.»*[20]

## Əbi Əbdillah əl-Bərqinin rəvayəti

**عَنْ أَبِي عَبْدِ اللَّهِ الْبَرْقِيِّ عَنْ بَعْضِ أَصْحَابِنَا قَالَ: دَفَعَتْ إِلَيَّ امْرَأَةٌ غَزْلًا فَقَالَتْ ادْفَعْهُ إِلَى حَجَبَةِ مَكَّةَ لِيُخَاطَ بِهِ كِسْوَةُ الْكَعْبَةِ قَالَ فَكَرِهْتُ أَنْ أَدْفَعَهُ.إِلَى الْحَجَبَةِ وَ أَنَا أَعْرِفُهُمْ فَلَمَّا أَنْ صِرْنَا إِلَى الْمَدِينَةِ دَخَلْتُ عَلَى أَبِي جَعْفَرٍ عليه السلام فَقُلْتُ لَهُ جُعِلْتُ فِدَاكَ إِنَّ امْرَأَةً أَعْطَتْنِي غَزْلًا فَقَالَتْ ادْفَعْهُ بِمَكَّةَ لِيُخَاطَ بِهِ كِسْوَةُ الْكَعْبَةِ فَكَرِهْتُ أَنْ أَدْفَعَهُ إِلَى الْحَجَبَةِ فَقَالَ اشْتَرِ بِهِ عَسَلًا وَ زَعْفَرَانَ [زَعْفَرَاناً]- وَ خُذْ مِنْ طِينِ قَبْرِ الْحُسَيْنِ عليه السلام وَ اعْجِنْهُ بِمَاءِ السَّمَاءِ وَ اجْعَلْ فِيهِ مِنَ الْعَسَلِ وَ الزَّعْفَرَانِ وَ فَرِّقْهُ عَلَى الشِّيعَةِ لِيُدَاوُوا بِهِ مَرْضَاهُمْ.**

*Əbi Əbdillah əl-Bərqi əshabımızdan bəzilərindən belə rəvayət edir: «Bir qadın Kəbənin haciblərinə (pərdə tikənlərinə) pərdə tikmək üçün*

[18] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.478
[19] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.467
[20] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.466

*verim deyə mənə bir toxunmuş parça verdi. Amma mən Kəbənin haciblərini yaxşı tanıdığım üçün (əxlaqlarına və bu hadisəyə necə reaksiya verməlırinə agah idim) o ipi onlara verməyə layiq bilmədim. Mədinəyə çatan zaman İmam Baqirin (ə) xidmətinə müşərrəf oldum. İmama (ə) ərz etdim: «Sənə fəda olum, bir qadın mənə bir ip verdi ki, Kəbənin pərdəsini tikmək üçün Kəbənin haciblərinə verim. Lakin mən o ipi ora verməyə layiq bilmədim (indi də Kəbədən uzağam və onun istəyini yerinə yetirə bilmirəm).» İmam (ə) buyurdu: «Onunla (yəni o iplə və ya onun pulu ilə) get bal ilə zəfəran al! İmam Hüseynin (ə) torpağını da yağış suyu ilə qarışdır, sonra o bal və zəfəranı onun içinə tök! Sonra xəstəliklərinə dərman olmasından ötrü onu şiələr arasında payla!»[21]*

## Yunis bin ər-Rəbinin rəvayəti

**عَنْ يُونُسَ بْنِ الرَّبِيعِ عَنْ أَبِي عَبْدِ اللَّهِ قَالَ: إِنَّ عِنْدَ رَأْسِ الْحُسَيْنِ عليه السلام لَتُرْبَةً حَمْرَاءَ فِيهَا شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ إِلَّا السَّامَ.**

*Yunis bin ər-Rəbi İmam Sadiqdən (ə) rəvayət edir ki, o Həzrət (ə) buyurdu: «İmam Hüseynin (ə) qəbrinin baş tərəfində qırmız türbət mövcuddur, belə ki, ölümdən başqa hər dərdə dərmandır.»[22]*

## İbn Əbi Yəfurun rəvayəti

**عَنِ ابْنِ أَبِي يَعْفُورٍ قَالَ: قُلْتُ لِأَبِي عَبْدِ اللَّهِ عليه السلام يَأْخُذُ الْإِنْسَانُ مِنْ طِينِ قَبْرِ الْحُسَيْنِ عليه السلام فَيَنْتَفِعُ بِهِ وَ يَأْخُذُ غَيْرُهُ وَ لَا يَنْتَفِعُ بِهِ فَقَالَ لَا وَ اللَّهِ الَّذِي لَا إِلَهَ إِلَّا هُوَ مَا يَأْخُذُهُ أَحَدٌ وَ هُوَ يَرَى أَنَّ اللَّهَ يَنْفَعُهُ بِهِ إِلَّا نَفَعَهُ بِهِ.**

*Əbu Yəfur rəvayət edir ki, İmam Sadiqdən (ə) soruşdum: «İnsanların bəzisi İmam Hüseynin (ə) qəbrinin türbətindən götürüb faydalanır, bəzisi isə faydalanmır (bu niyə belədir bəs?).» İmam (ə) buyurdu: «Özündən başqa məbud olmayan Allaha and olsun ki, elə*

[21] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.461

[22] Əbu Cəfər əl-Kuleyni, Üsul min əl-kafi, c.4, s.588

*insan yoxdur ki, Allahın o torpağın vasitəsilə ona xeyir verməsini düşünərək o torpaqdan götürsün, lakin ona xeyri olmasın.»*[23]

## Ömər bin Vaqidin rəvayəti

**عَنْ عُمَرَ بْنِ وَاقِدٍ قَال قَال لي موسي بن جعفر عليه السلام لَا تَأْخُذُوا مِنْ تُرْبَتِي شَيْئاً لِتَتَبَرَّكُوا بِهِ فَإِنَّ كُلَّ تُرْبَةٍ لَنَا مُحَرَّمَةٌ إِلَّا تُرْبَةَ جَدِّي الْحُسَيْنِ بْنِ عَلِيٍّ عليه السلام فَإِنَّ اللهَ تَعَالَى جَعَلَهَا شِفَاءً لِشِيعَتِنَا....**

*Əmr bin Vaqid deyir ki, İmam Musa Kazim (ə) mənə buyurdu: «Təbərrük etmək üçün mənim türbətimi götürməyin. Cəddim Hüseynin (ə) türbətindən başqa bütün torpaqlar bizə haramdır. Çünki Allah-Təala o torpağa bizim şiələrimiz üçün şəfa bəxş edibdir.»*[24]

## Muhəmməd bin Müslimin rəvayəti

**عَنْ مُحَمَّدِ بْنِ مُسْلِمٍ، قَالَ: سَمِعْتُ أَبَا جَعْفَرٍ وَ جَعْفَرَ بْنَ مُحَمَّدٍ (عَلَيْهِما السَّلَامُ) يَقُولَانِ: إِنَّ اللَّهَ (تَعَالَى) عَوَّضَ الْحُسَيْنَ (عَلَيْهِ السَّلَامُ) مِنْ قَتْلِهِ أَنْ جَعَلَ الْإِمَامَةَ فِي ذُرِّيَّتِهِ، وَ الشِّفَاءَ فِي تُرْبَتِهِ، وَ إِجَابَةَ الدُّعَاءِ عِنْدَ قَبْرِهِ، وَ لَا تُعَدُّ أَيَّامُ زَائِرِيهِ جَائِياً وَ رَاجِعاً مِنْ عُمُرِهِ.**

*Muhəmməd ibn Müslim rəvayət edir ki, İmam Baqir (ə) və İmam Sadiqdən belə buyurduqlarını eşitdim: «Allah-Təala İmam Hüseynin (ə) şəhadətinin əvəzində onun övladlarına imaməti, onun türbətinə şəfanı və onun qəbrinin üstündə oxunan duanın qəbul olunmasını bəxş etdi. Onun ziyarətinə gələn zəvvarların ziyarət etdiyi günlər zəvvarların ömründən hesablanmır.»*[25]

## Haris bin Müğeyrə ən-Nəsrinin rəvayəti

**عَنِ الْحَارِثِ بْنِ الْمُغِيرَةِ النَّصْرِيِّ، قَالَ: قُلْتُ لِأَبِي عَبْدِ اللَّهِ (عَلَيْهِ السَّلَامُ):**

---

[23] *Əbu Cəfər əl-Kuleyni (vəfat 328 h.), Üsul min əl-kafi, c.4, s.587; Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi (vəfat 367 h.), Kamil əz-ziyarət, s.461*

[24] *Şeyx əs-Səduq, Uyun əxbar ər-Rza (ə.s), c.2, s.96*

[25] *Şeyx Əbu Cəfər ət-Tusi, əl-Əmali, s.318*

**إنّي رَجُلٌ كَثِيرُ الْعِلَلِ وَ الْأَمْرَاضِ، وَ مَا تَرَكْتُ دَوَاءً إِلَّا تَدَاوَيْتُ بِهِ فَمَا انْتَفَعْتُ بِشَيْءٍ مِنْهُ.فَقَالَ لِي: أَيْنَ أَنْتَ عَنْ طِينِ قَبْرِ الْحُسَيْنِ بْنِ عَلِيٍّ (عَلَيْهِ السَّلَامُ)، فَإِنَّ فِيهِ شِفَاءً مِنْ كُلِّ دَاءٍ، وَ أَمْناً مِنْ كُلِّ خَوْفٍ.**

*Haris ibn Müğeyrə ən-Nəsri rəvayət edir ki, İmam Sadiqin (ə) xidmətinə yetişib ona ərz etdim: «Mən çox xəstələnən bir adamam, elə bir dərman yoxdur ki, ondan istifadə etməyim. Lakin mənə heç bir xeyri olmayıb.» İmam (ə) buyurdu: «İmam Hüseynin (ə) qəbrinin türbətindən istifadə etmisənmi? Çünki həqiqətən bu torpaqda hər bir dərd üçün şəfa, hər bir qorxu üçün aman vardır.»*[26]

## Zeyd Əbi Üsamənin rəvayəti

**عَنْ زَيْدٍ أَبِي أُسَامَةَ، قَالَ: كُنْتُ فِي جَمَاعَةٍ مِنْ عِصَابَتِنَا بِحَضْرَةِ سَيِّدِنَا الصَّادِقِ (عَلَيْهِ السَّلَامُ)، فَأَقْبَلَ عَلَيْنَا أَبُو عَبْدِ اللَّهِ (عَلَيْهِ السَّلَامُ)، فَقَالَ: إِنَّ اللَّهَ (تَعَالَى) جَعَلَ تُرْبَةَ جَدِّي الْحُسَيْنِ (عَلَيْهِ السَّلَامُ) شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ أَمَاناً مِنْ كُلِّ خَوْفٍ....**

*Zeyd bin Üsamə deyir ki, bir qrup böyüklərlə ağamız İmam Sadiqin (ə) hüzurunda idik. O, bizə üzünü tutub buyurdu: «Allah-Təala cəddim Hüseynin (ə) türbətində hər dərd üçün şəfa və hər qorxu üçün aman qərarlaşdırmışdır.»*[27]

## Səd bin Səid əl-Əşərinin rəvayəti

**سَعْدُ بْنُ سَعِيدٍ الْأَشْعَرِيُّ، عَنْ أَبِي الْحَسَنِ الرِّضَا (عَلَيْهِ السَّلَامُ)، قَالَ: سَأَلْتُهُ عَنِ الطِّينِ الَّذِي يُؤْكَلُ يَأْكُلُهُ النَّاسُ.**

**فَقَالَ: كُلُّ طِينٍ حَرَامٌ كَالْمَيْتَةِ وَ الدَّمِ وَ ما أُهِلَّ لِغَيْرِ اللَّهِ بِهِ مَا خَلَا طِينَ قَبْرِ الْحُسَيْنِ (عَلَيْهِ السَّلَامُ)، فَإِنَّهُ شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ.**

*Səd bin Səid əl-Əşəri rəvayət edir ki, İmam Rzadan (ə) insanların yediyi torpaq haqqında soruşdum. Buyurdu: «Bütün torpaqların yeyilməsi meytə, qan və şəri üsulla kəsilməyən heyvanın əti kimi*

---

[26] Şeyx Əbu Cəfər ət-Tusi, əl-Əmali, s.318
[27] Şeyx Əbu Cəfər ət-Tusi, əl-Əmali, s.318

*haramdır. Amma İmam Hüseynin (ə) torpağı istisnadır, çünki onda hər bir dərdin şəfası var.»*[28]

## Əbu Həmzə əs-Sumalinin rəvayəti

عَنْ أَبِي حَمْزَةَ الثُّمَالِيِّ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ كُنْتُ بِمَكَّةَ وَ ذَكَرَ فِي حَدِيثِهِ قُلْتُ جُعِلْتُ فِدَاكَ إِنِّي رَأَيْتُ أَصْحَابَنَا يَأْخُذُونَ مِنْ طِينِ الْحُسَيْنِ عليه السلام لِيَسْتَشْفُوا بِهِ هَلْ فِي ذَلِكَ شَيْءٌ مِمَّا يَقُولُونَ مِنَ الشِّفَاءِ قَالَ قَالَ يُسْتَشْفَى بِمَا بَيْنَهُ وَ بَيْنَ الْقَبْرِ عَلَى رَأْسِ أَرْبَعَةِ أَمْيَال.

*Əbu Həmzə əs-Sumali deyir ki, Məkkədə idim, İmam Sadiqin (ə) xidmətinə ərz etdim: «Sizə fəda olum, mən dostlarımızı (şiələri) İmam Hüseynin (ə) torpağından şəfa diləmək üçün türbət götürərkən gördüm. Siz də o torpağın şəfa verici olmasına qailsiz?» Buyurdu: «O qəbrin dörd mil (milin qədərini əvvəlcə qeyd etmişik) məsafəsindən olan torpağından belə şəfa tapmaq üçün istifadə etmək olar.»*[29]

## Yunis bin Rəbinin rəvayəti

عَنْ يُونُسَ بْنِ الرَّبِيعِ عَنْ أَبِي عَبْدِ اللَّهِ قَالَ: إِنَّ عِنْدَ رَأْسِ الْحُسَيْنِ عليه السلام لَتُرْبَةً حَمْرَاءَ فِيهَا شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ إِلَّا السَّامَ.

*Yunis bin Rəbi İmam Sadqidən (ə) rəvayət edir ki, o Həzrət (ə) buyurdu: «İmam Hüseynin (ə) qəbrinin baş tərəfində qırmız türbət mövcuddur, belə ki, ölümdən başqa hər dərdə dərmandır.»*[30]

## Yunis bin Rəfinin rəvayəti

عَنْ يُونُسَ بْنِ الرَّفِيعِ عَنْ أَبِي عَبْدِ اللَّهِ قَالَ: إِنَّ عِنْدَ رَأْسِ الْحُسَيْنِ عليه السلام لَتُرْبَةً حَمْرَاءَ فِيهَا شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ إِلَّا السَّامَ.

---

[28] *Şeyx Əbu Cəfər ət-Tusi, əl-Əmali, s.319*

[29] *Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.470-471*

[30] *Əbu Cəfər əl-Kuleyni, Üsul min əl-Kafi, c.4, s.588*

*Yunis bin Rəbi İmam Sadqidən (ə) rəvayət edir ki, o Həzrət (ə) buyurdu: «İmam Hüseynin (ə) qəbrinin baş tərəfində qırmız türbət mövcuddur, belə ki, ölümdən başqa hər dərdə dərmandır.»*[31]

## Əbu Cəfər əl-Məvsilinin rəvayəti

**عَنْ أَبِي جَعْفَرٍ الْمَوْصِلِيّ أَنَّ أَبَا جَعْفَرٍ عليه السلام قَالَ: إِذَا أَخَذْتَ طِينَ قَبْرِ الْحُسَيْنِ فَقُلْ اللَّهُمَّ بِحَقِّ هَذِهِ التُّرْبَةِ وَ بِحَقِّ الْمَلَكِ الْمُوَكَّلِ بِهَا وَ الْمَلَكِ الَّذِي كَرِبَهَا وَ بِحَقِّ الْوَصِيّ الَّذِي هُوَ فِيهَا صَلِّ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ وَ اجْعَلْ هَذَا الطِّينَ شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ أَمَاناً مِنْ كُلِّ خَوْفٍ فَإِنْ فَعَلَ ذَلِكَ كَانَ حَتْماً شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ أَمَاناً مِنْ كُلِّ خَوْفٍ.**

*Əbu Cəfər əl-Məvsili İmam Baqirin (ə) belə buyurduğunu nəql edir: İmam Hüseynin (ə) qəbrindən türbət götürdüyün zaman de: «İlahi bu mübarək türbətə, bu torpağa vəkil olan mələyə, o torpağa qəmlənib ağlayan mələyə, onda yatan Vəsiyə xatir Məhəmməd və ali Məhəmmədə salavat göndər, bu torpağı hər dərd üçün şəfa, hər qorxu üçün aman qərar ver!» Əgər belə etsən bu mütləq hər dərdin şəfası və hər qorxuya aman olar.»*[32]

## Səmaə bin Mihranın rəvayəti

**رَوَى سَمَاعَةُ بْنُ مِهْرَانَ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ: كُلُّ طِينٍ حَرَامٌ عَلَى بَنِي آدَمَ مَا خَلَا طِينَ قَبْرِ الْحُسَيْنِ عليه السلام مَنْ أَكَلَهُ مِنْ وَجَعٍ شَفَاهُ اللَّهُ تَعَالَى.**

*Səmaə ibn Mihran İmam Sadiqdən (ə) onun belə buyurduğunu nəql edir: «Bütün torpaqlar (yeyilməsi) bəni-Adəmə haramdır. Lakin İmam Hüseynin (ə) qəbrinin türbəti istisnadır. Hər dərdi olan kəs ondan yesə Allah Təala ona şəfa bəxş edər.»*[33]

## İbrahim bin Muhəmməd əs-Səqəfinin rəvayəti

**رَوَى إِبْرَاهِيمُ بْنُ مُحَمَّدٍ الثَّقَفِيُ[عن ابيه عن الصادق جعفر بن محمد] أَنَّ فَاطِمَةَ عليها السلام بِنْتَ رَسُولِ اللَّهِ، صكَانَتْ مِسْبَحَتُهَا مِنْ خَيْطِ صُوفٍ مُفَتَّلٍ مَعْقُودٍ عَلَيْهِ عَدَدَ**

---

[31] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.468
[32] Əbu əl Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.469
[33] Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.479

**التَّكْبِيرَاتِ فَكَانَتْ عليه السلام تُدِيرُهَا بِيَدِهَا تُكَبِّرُ وَ تُسَبِّحُ إِلَى أَنْ قُتِلَ حَمْزَةُ بْنُ عَبْدِ الْمُطَّلِبِ سَيِّدُ الشُّهَدَاءِ فَاسْتَعْمَلَتْ تُرْبَتَهُ وَ عَمِلَتِ الْمَسَابِيحَ فَاسْتَعْمَلَهَا النَّاسُ فَلَمَّا قُتِلَ الْحُسَيْنُ عليه السلام عُدِلَ بِالْأَمْرِ إِلَيْهِ فَاسْتَعْمَلُوا تُرْبَتَهُ لِمَا فِيهَا مِنَ الْفَضْلِ وَ الْمَزِيَّةِ.**

*İbrahim bin Muhəmməd əs-Saqəfi atasından, o da İmam Sadiqin belə buyurduğunu söylədi: «Həzrət Fatimeyi-Zəhranın (s.ə) təsbehi yundan toxunmuş idi. Təkbirlərin sayı qədər onda düyün var idi və Həzrət (s.ə) öz mübarək əllərilə onu Həzrət Seyyidüş-şühəda Həmzə ibn Əbd əl-Müttəlib şəhadətə çatanadək firladıb təsbih və təkbir deyirdi. Lakin Həmzənin şəhadətindən sonra Həzrət Zəhra (s.ə) Həmzənin qəbrinin türbətindən təsbeh düzəltdi və camaat da onun yoluna əməl elədi. Seyydidüş-şühəda İmam Hüseynin (ə) şəhadətindən sonra Həmzənin türbətinin əvəzinə İmam Hüseynin (ə) mübarək türbətindən o türbətin məziyyət və fəzilətli olması səbəbinə təsbeh düzəldilməsinə əmr verildi.»*[34]

## *Hənan bin Sədirin rəvayəti*

**وَ رَوَى حَنَانُ بْنُ سَدِيرٍ عَنْ أَبِيهِ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام أَنَّهُ قَالَ مَنْ أَكَلَ مِنْ طِينِ قَبْرِ الْحُسَيْنِ عليه السلام غَيْرَ مُسْتَشْفٍ بِهِ فَكَأَنَّمَا أَكَلَ مِنْ لُحُومِنَا فَإِذَا احْتَاجَ أَحَدُكُمْ لِلْأَكْلِ مِنْهُ لِيَسْتَشْفِيَ بِهِ فَلْيَقُلْ بِسْمِ اللَّهِ وَ بِاللَّهِ اللَّهُمَّ رَبَّ هَذِهِ التُّرْبَةِ الْمُبَارَكَةِ الطَّاهِرَةِ وَ رَبَّ النُّورِ الَّذِي أُنْزِلَ فِيهِ وَ رَبَّ الْجَسَدِ الَّذِي سَكَنَ فِيهِ وَ رَبَّ الْمَلَائِكَةِ الْمُوَكَّلِينَ بِهِ اجْعَلْهُ لِي شِفَاءً مِنْ دَاءِ كَذَا وَ كَذَا وَ اجْرَعْ مِنَ الْمَاءِ جُرْعَةً خَلْفَهُ وَ قُلِ اللَّهُمَّ اجْعَلْهُ رِزْقاً وَاسِعاً وَ عِلْماً نَافِعاً وَ شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ سُقْمٍ فَإِنَّ اللَّهَ تَعَالَى يَدْفَعُ عَنْكَ بِهَا كُلَّ مَا تَجِدُ مِنَ السُّقْمِ وَ الْهَمِّ وَ الْغَمِّ إِنْ شَاءَ اللَّهُ تَعَالَى**

*Hənan ibn Sədr atasından, o da İmam Sadiqin (ə) belə buyurduğunu nəql edir: «Hər kəs şəfa istəmək niyyəti olmadan İmam Hüseynin (ə)*

---

[34] *Şeyx əl-Mufid (vəfat 413 h.), əl-Məzar, s.150; Dar əl-Mufid lil-Tiba vəl-Nəşr vəl-Təuzi, Beyrut, 1414/1993; Həsən ibn Fəzl əl-Təbərsi (vəfat 548 h.), Məkarim əl-Əxlaq, s.281; Şərif Razi, Qum, 1392/1972*

*qəbrinin türbətini yeyərsə sanki bizim ətimizi yemişdir. Lakin sizdən birinizin o türbətə şəfa tapmaq üçün ehtiyacı olarsa (yeyərkən) belə desin: «Allahın adı və köməkliyi ilə, İlahi, ey bu pak və mübarək türbətin rəbbi, ey bu torpağa nazil etdiyin nurun rəbbi, ey bur torpaqda sakin olan cəsədin rəbbi, ey bu torpağa vəkil olan mələklərin rəbbi, bu torpağı mənim filan xəstəliyimə şəfa qərar ver!» Sonra bir qurtum su iç və belə de!: «İlahi, bunu mənə mənim üçün bol ruzi, faydalı elm və hər dərdimə şəfa qərar ver!» Həqiqətən də Allah-Təala bu türbətin vasitəsilə sənin hər narahatçılıq, dərd, qəm və kədərini səndən uzaqlaşdırar.»*[35]

### Muhəmməd bin Maridin rəvayəti

**عَنْ مُحَمَّدِ بْنِ مَارِدٍ عَنْ عَمَّتِهِ قَالَتْ سَمِعْتُ أَبَا عَبْدِ اللَّهِ عليه السلام يَقُولُ إِنَّ فِي طِينِ الْحَائِرِ الَّذِي فِيهِ الْحُسَيْنُ عليه السلام شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ أَمَاناً مِنْ كُلِّ خَوْفٍ.**

*Məhəmməd bin Marid öz bibisindən, o da İmam Sadiqin (ə) belə buyurduğunu eşitdiyini rəvayət edir: «İmam Hüseynin (ə) yatdığı Hair torpağında hər dərdə şəfa və hər qorxuya aman vardır.»*[36]

## Şəfa vermək yalnız Allahın əlindədir

Buraya qədər İmam Hüseynin (ə) türbətinin şəfa bəxş olması və digər türbətlərin isə bunun əksinə olması sabit oldu. Əlbəttə şiənin nəzərinə görə bu torpaq özü-özlüyündə (müstəqil olaraq) şəfa vermir və Allahın izninə bağlıdır. Yəni, Kərbəla torpağına şəfa bəxş edən Allahdır. Mübarək türbəti yeməyin ədəblərində deyildiyi kimi, «bismillah» demək, Allahdan yardım istəməklə yeyilir:

---

[35] *əl-Hürr əl-Amili, Təfsil Vəsail əş-Şiə ila təhsil əş-şəria, c.4 s.265*
[36] *Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi, Kamil əz-ziyarət, s.467*

**عَنْ مُحَمَّدِ بْنِ إِسْمَاعِيلَ الْبَصْرِيِّ عَنْ بَعْضِ رِجَالِهِ عَنْ أَبِي عَبْدِ اللَّهِ عليه السلام قَالَ: طِينُ قَبْرِ الْحُسَيْنِ عليه السلام شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ وَ إِذَا أَكَلْتَهُ فَقُلْ بِسْمِ اللَّهِ وَ بِاللَّهِ اللَّهُمَّ اجْعَلْهُ رِزْقاً وَاسِعاً وَ عِلْماً نَافِعاً وَ شِفَاءً مِنْ كُلِّ دَاءٍ إِنَّكَ عَلى كُلِّ شَيْءٍ قَدِيرٌ.**

*Məhəmməd ibn İsmayıl əl-Bəsri bəzi səhabələrdən nəqlən İmam Sadiqin belə buyurduğunu rəvayət edir: İmam Hüseynin (ə) qəbrinin torpağı hər dərdin şəfasıdır. Onu yediyin zaman (belə) de!: «Allahın adı və köməyilə, İlahi bu torpağı mənim üçün bol ruzi, faydalı elm və hər dərdə şəfa qərar ver, (çünki) Sən hər şeyə qadirsən!»*[37]

Şiə və əhli-sünnə rəvayətləri də bunu deyir ki, şəfa Allahın əlindədir və O, istədiyi kəsə şəfa verər.

Mərhum əl-Kuleyni öz «əl-Kafi» kitabında belə bir hədis nəql etmişdir:

**عَنْ حُسَيْنٍ الْخُرَاسَانِيِّ وَ كَانَ خَبَّازاً قَالَ: شَكَوْتُ إِلَى أَبِي عَبْدِ اللَّهِ عليه السلام وَجَعاً بِي فَقَالَ إِذَا صَلَّيْتَ فَضَعْ يَدَكَ مَوْضِعَ سُجُودِكَ ثُمَّ قُلْ بِسْمِ اللَّهِ مُحَمَّدٌ رَسُولُ اللَّهِ، (ص ) اشْفِنِي يَا شَافِي، لَا شِفَاءَ إِلَّا شِفَاؤُكَ شِفَاءً لَا يُغَادِرُ سُقْماً، شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ سُقْمٍ.**

*Hüseyn əl-Xorasani rəvayət edir ki, mən öz dərdim barəsində İmam Sadiqə (ə) şikayət etdim. O, mənə buyurdu: Namazdan sonra əllərini səcdə etdiyin yerə qoy və belə de!:*

**بِسْمِ اللَّهِ مُحَمَّدٌ رَسُولُ اللَّهِ، (ص ) اشْفِنِي يَا شَافِي، لَا شِفَاءَ إِلَّا شِفَاؤُكَ شِفَاءً لَا يُغَادِرُ سُقْماً، شِفَاءً مِنْ كُلِّ دَاءٍ وَ سُقْمٍ.**

*«Allahın adı ilə, Məhəmməd (ə) Allahın rəsuludur! Ey şəfa verən [Allah] mənə şəfa ver! Sənin şəfandan başqa [bizim üçün hasil olacaq] şəfa yoxdur, o elə bir şəfadır ki, heç xəstəni tərk etməz, hər dərd və xəstəliyin şəfasıdır.»*[38]

---

[37] *Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi (vəfat 367 h.), Kamil əz-ziyarət, s.461*

[38] *Əbu Cəfər əl-Kuleyni, Üsul min əl-Kafi, c.2, s.567*

Şeyx Hürr əl-Amili «Vəsail əş-şiə» kitabında yazır:

**عن محمد بن مسلم، عن أبي جعفر عليه السلام قال:... إنما الشفاء بيد الله**

*Muhəmməd bin Müslim İmam Baqirin (ə) belə buyurduğunu nəql edir: «Şəfa fəqət Allahın əlindədir [və ya əlilədir].»*[39]

əl-Buxari öz «əs-Səhih»ində Aişədən belə rəvayət edir:

**عَنْ عَائِشَةَ رَضِيَ اللَّهُ عَنْهَا " أَنَّ النَّبِيَّ (ص) كَانَ يُعَوِّذُ بَعْضَ أَهْلِهِ يَمْسَحُ بِيَدِهِ الْيُمْنَى، وَيَقُولُ: اللَّهُمَّ رَبَّ النَّاسِ، أَذْهِبْ الْبَاسَ اشْفِهِ وَأَنْتَ الشَّافِي، لَا شِفَاءَ إِلَّا شِفَاؤُكَ، شِفَاءً لَا يُغَادِرُ سَقَمًا ".**

*Aişədən nəql olunan rəvayətə görə Həzrət Peyğəmbər (s) Allahın onları qoruması üçün ailəsinin bəzisinin vücudunda ağrıyan yerin üzərinə sağ əlini qoyaraq oranı məsh edər və belə deyərdi:*

**اللَّهُمَّ رَبَّ النَّاسِ، أَذْهِبْ الْبَاسَ اشْفِهِ وَأَنْتَ الشَّافِي، لَا شِفَاءَ إِلَّا شِفَاؤُكَ، شِفَاءً لَا يُغَادِرُ سَقَمً**

*«Ey insanların rəbbi! Bu xəstəliyi apar, ona [xəstəyə] şəfa ver! Şəfa verən yalnız sənsən! Sənin şəfandan başqa [bizim üçün hasil olacaq] şəfa yoxdur. Elə bir şəfa ver ki, heç bir xəstəlik qalmasın!»*[40]

Nəticədə əhli-sünnə və şiə baxışına görə şəfa vermək yalnız Allahın əlindədir və əlbəttə ki, «şəfa»nı istədiyi kəsə verməyə qadirdir. Amma bu o mənada deyil ki, Allahın vasitəyə ehtiyacı var. Sadəcə Allah qanunu vasitələrlə öz bəndələrinə yetişir. Allah qanunları öz mələkləri və peyğəmbərləri vasitəsilə, onlara ehtiyacı olmadan insanlara çatdırır.

## Şəfa ayə və əhli-sünnə rəvayətləri baxımından

Ayə və rəvayətlərə əsasən Qadir və Həkim olan Allah bəzi ayələrdə, zikrlərdə, həmçinin yemək və içmək daxil olmaqla bəzi

---

[39] *əl-Hürr əl-Amili, Təfsil Vəsail əş-Şiə ila təhsil əş-şəria, c.17 s.182*

[40] *Muhəmməd bin İsmayıl əl-Buxari (vəfat 256 h.), əl-Cami əs-Səhih, c.5, s.2168*

əşyalarda şəfa qərar vermişdir. Ayə və rəvayətlərin (istər əhli-sünə, istərsə də şiə) bir çoxunda Allahın vasitə səbəbilə şəfa verdiyi qeyd olunmaqdadır. Onlardan bir neçəsinə işarə edirik:

## Quran şəfadır

**وَلَوْ جَعَلْنَاهُ قُرْآنًا أَعْجَمِيًّا لَقَالُوا لَوْلَا فُصِّلَتْ آيَاتُهُ أَأَعْجَمِيٌّ وَعَرَبِيٌّ قُلْ هُوَ لِلَّذِينَ آمَنُوا هُدًى وَشِفَاءٌ وَالَّذِينَ لَا يُؤْمِنُونَ فِي آذَانِهِمْ وَقْرٌ وَهُوَ عَلَيْهِمْ عَمًى أُولَئِكَ يُنَادَوْنَ مِنْ مَكَانٍ بَعِيدٍ.**

*«Əgər Biz onu özgə bir dildə olan Quran etsəydik (Məkkə müşrikləri): «Məgər onun ayələri (bizim üçün) müfəssəl izah olunmalı deyildimi?! Bu nədir? (Quran) özgə dildə, (Peyğəmbər isə) ərəbmidir?!» – deyərdilər. (Ya Rəsulum!) De: «O, iman gətirənlərə hidayətdir və (cəhalət xəstəliyinə tutulmuş ürəklərə) şəfadır. İman gətirməyənlərin isə qulaqlarında karlıq (ağırlıq) vardır. O, (Quran) onları kor etmişdir. Onlar (sanki) uzaq bir yerdən çağırılırlar. (Heç bir şey eşitməz, heç bir şey anlamazlar).»*[41]

**وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاءٌ وَرَحْمَةٌ لِلْمُؤْمِنِينَ وَلَا يَزِيدُ الظَّالِمِينَ إِلَّا خَسَارًا.**

*«Biz Quranda möminlər üçün şəfa və mərhəmət (olan ayələr) nazil edirik. (Bu ayələr) zalımların ancaq ziyanını artırır.»*[42]

## Bal şəfadır

**ثُمَّ كُلِي مِنْ كُلِّ الثَّمَرَاتِ فَاسْلُكِي سُبُلَ رَبِّكِ ذُلُلًا يَخْرُجُ مِنْ بُطُونِهَا شَرَابٌ مُخْتَلِفٌ أَلْوَانُهُ فِيهِ شِفَاءٌ لِلنَّاسِ إِنَّ فِي ذَلِكَ لَآيَةً لِقَوْمٍ يَتَفَكَّرُونَ.**

*«Sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat (asanlıqla) get! (Və ya: "Rəbbinin yollarını itaətlə tut!") (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli (ağ, sarı, qırmızı) bal çıxar. Şübhəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!»*[43]

---

[41] *Fussilət surəsi, 44*

[42] *əl-İsra surəsi, 82*

[43] *ən-Nəhl surəsi, 69*

## Fatihə surəsi şəfadır

Əbu Bəkr əl-Beyhəqi «Şuəb əl-iman» kitabında yazır:

عَنْ جَابِرِ بْنِ عَبْدِ اللَّهِ، أَنَّهُ قَالَ: رَأَيْتُ النَّبِيَّ (ص)... ثُمَّ قَالَ: " يَا جَابِرُ، أَلا أُخْبِرُكَ بِخَيْرِ سُورَةٍ نَزَلَتْ فِي الْقُرْآنِ؟ "، قَالَ: قُلْتُ: بَلَى يَا رَسُولَ اللَّهِ، قَالَ: " فَاتِحَةُ الْكِتَابِ، قَالَ عَلِيٌّ: وَأَحْسَبُهُ، قَالَ: فِيهَا شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ ".

*Cabir ibn Abdullah Peyğəmbərdən (ə) belə buyurduğunu nəql edib: «Ey Cabir, Quranda nazil olan ən yaxşı surəni sənə bildirimmi?» Ərz etdim: «Bəli, ya Rəsulullah!» Buyurdu: «Fatihətul-kitab böyük və əzəmətlidir və mən də onu böyük sayıram.» Sonra buyurdu: «Onda hər dərdin dərmanı var.»*[44]

## Mədinə torpağı və bizim bəzilərimizin ağzının suyu şəfadır

Muhəmməd bin İsmayıl əl-Buxari öz «əs-Səhih»ində yazır ki, Mədinə torpağı və bəzi şəxslərin ağız suları şəfadır.

عن عَائِشَةَ قالت كان النبي صلى الله عليه وسلم يقول في الرُّقْيَةِ تُرْبَةُ أَرْضِنَا وَرِيقَةُ بَعْضِنَا يُشْفَى سَقِيمُنَا بِإِذْنِ رَبِّنَا.

*Aişə belə deyir: «Peyğəmbər sehrin müalicəsində belə deyərdi: Bu bizim yurdumuzun torpağı və bəzimizin ağız suyu bizim xəstələrimiz üçün Allahın iznilə şəfadır.»*[45]

Əziz oxucu, bu kəlama diqqət et: *«Bismillah. Bizim torpağımız bəzimizin tüpürcəyi ilə xəstələrimizə Allahın izni ilə şəfa verər.»*

ən-Nəvəvi bu hədisin şərhində belə deyir:

قولها ( قال النبى صلى الله عليه و سلم بأصبعه هكذا ووضع سفيان سبابته بالأرض ثم رفعها باسم الله تربة أرضنا بريقة بعضنا ليشفى به سقيمنا باذن ربنا ) قال جمهور العلماء المراد بأرضنا هنا جملة الأرض وقيل أرض المدينة خاصة لبركتها والريقة أقل من الريق ومعنى الحديث أنه يأخذ من ريق نفسه على أصبعه السبابة ثم يضعها على

[44] Əli b. Musa əl-Beyhəqi, Şuəb əl-İman, s.797

[45] Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, c.5, s.2168

**التراب فيعلق بها منه شيء فيمسح به على الموضع الجريح أو العليل ويقول هذا الكلام فى حال المسح والله أعلم**

*«Peyğəmbər (s) barmağı ilə – Süfyan öz şəhadət barmağını yerə qoydu sonra qaldırdı – buyurub: «Bismillah. Bizim torpağımız bəzimizin tüpürcəyi ilə xəstələrimizə Allahın izni ilə şəfa verər.» Alimlərin əksəriyyətinin nəzərincə hədisdəki «bizim torpağımız» ifadəsində məqsəd bütün torpaqlardır. Bəziləri isə bunda məqsədin ancaq bərəkətinə görə Mədinə torpağının olduğunu deyirlər. «**ريقة**» «Riqətun» sözü tüpürcəyin azına deyilər. Hədisin mənası budur ki, o, öz şəhadət barmağı ilə öz tüpürcəyindən götürür, sonra onu torpağın üstünə qoyur və onu torpaqla qarışdırır. Sonra onu yara, və ya ağrı olan yerə sürtür və onu sürtən zaman bu kəlamı deyir. Daha doğrusunu Allah bilir.»[46]*

## Milçəyin qanadı şəfadır

**أَبَا هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ، يَقُولُ: قَالَ النَّبِيُّ (ص): " إِذَا وَقَعَ الذُّبَابُ فِي شَرَابِ أَحَدِكُمْ فَلْيَغْمِسْهُ، ثُمَّ لِيَنْزِعْهُ فَإِنَّ فِي إِحْدَى جَنَاحَيْهِ دَاءً وَالْأُخْرَى شِفَاءً "**

*Əbu Hüreyrə Rəsulullahın belə buyurduğunu rəvayət edir: «Əgər sizin (yemək, və ya icmək) qabınıza milçək düşərsə, o milçəyin hər tərəfini islatsın sonra çıxarıb atsın, çünki onun bir tərəfində xəstəlik, digər tərəfində isə şəfa var.»[47]*

## Göbələk suyu gözə şəfadır

**عن سَعِيدِ بن زَيْدٍ رضي الله عنه قال قال رسول اللَّهِ صلى الله عليه وسلم الْكَمْأَةُ من الْمَنِّ وَمَاؤُهَا شِفَاءٌ لِلْعَيْنِ .**

---

[46] *ən-Nəvəvi, Şərh Səhih Müslim, c. 14, s. 183*
[47] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, c.5, s.2180*

*Səid bin Zeyd Allahın rəsulunun (s) belə buyurduğunu rəvayət edir: «Göbələk də nemətlərdəndir və suyu da gözə dərmandır.»[48]*

## Qara tum şəfadır

**عن خَالِدِ بن سَعْدٍ قال خَرَجْنَا وَمَعَنَا غَالِبُ بن أَبْجَرَ فَمَرِضَ في الطَّرِيقِ فَقَدِمْنَا الْمَدِينَةَ وهو مَرِيضٌ فَعَادَهُ بن أبي عَتِيقٍ فقال لنا عَلَيْكُمْ بِهَذِهِ الْحُبَيْبَةِ السَّوْدَاءِ فَخُذُوا منها خَمْسًا أو سَبْعًا فَاسْحَقُوهَا ثُمَّ اقْطُرُوهَا في أَنْفِهِ بِقَطَرَاتِ زَيْتٍ في هذا الْجَانِبِ وفي هذا الْجَانِبِ فَإِن عَائِشَةَ حَدَّثَتْنِي أنها سَمِعَتْ النبي صلى الله عليه وسلم يقول إِنَّ هذه الْحَبَّةَ السَّوْدَاءَ شِفَاءٌ من كل دَاءٍ إلا من السَّامِ قلت وما السَّامُ قال الْمَوْتُ.**

*Xalid bin Səid deyir ki, biz səfərə çıxmışdıq, Ğalib bin Əbcər də bizimlə idi. Bu Ğalib yolda xəstələndi. Mədinəyə gəldik, lakin o, hələ xəstə idi. Əbu Ətiqin oğlu (yəni Abdullah ibn Muhəmməd bin Əbdür-Rəhman bin Əbi Bəkr əs-Siddiq ki, Əbu Ətiq atası Muhəmmədin künyəsi idi) onu ziyarət etməyə gəldi. Bu ziyarətdə Abdulla bin Muhəmməd belə buyurdu: «Bu kiçik qara dənədən beş, və ya yeddi dənəsini götürüb əzin! Sonra bunu zeytun yağı ilə burnunun hər iki tərəfinə tök! Çünki Aişə mənə Peyğəmbərdən (ə) belə eşitdiyini nəql edib ki, Rəsulullah (s) belə buyurub: «Qara tum «sam»dan başqa bütün xəstəliklərə dərmandır. Soruşdum ki, «sam» nədir buyurdu ki, ölüm.»[49]*

## Qan alma şəfadır

**أَنَّ جَابِرَ بن عبد اللَّهِ رضي الله عنهما دعا الْمُقَنَّعَ ثُمَّ قال لَا أَبْرَحُ حتى تَحْتَجِمَ فَإِنِّي سمعت رَسُولَ اللَّهِ صلى الله عليه وسلم يقول إِنَّ فيه شِفَاءً**

---

[48] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, c.4, s.1700/c.5, s.2159*
[49] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, c.5, s.2154*

*Cabir bin Abdullah əl-Ənsari əl-Muğənnanı çağırıb dedi: «Məndən qan almayınca səndən ayrılmaram. Çünki mən Peyğəmbərdən (s) qan almanın şəfa olduğunu eşitdim.»*[50]

## Hind udu (qara rəngi olan ətirli ağacdır) şəfadı

**عَنْ أُمِّ قَيْسٍ بِنْتِ مِحْصَنٍ قَالَتْ: سَمِعْتُ النَّبِيَّ (ص) يَقُولُ: " عَلَيْكُمْ بِهَذَا الْعُودِ الْهِنْدِيِّ، فَإِنَّ فِيهِ سَبْعَةَ أَشْفِيَةٍ: يُسْتَعَطُ بِهِ مِنَ الْعُذْرَةِ، وَيُلَدُّ بِهِ مِنْ ذَاتِ الْجَنْبِ "،....**

*Ümmü Qeys Mihsənin qızından nəql edir ki, belə deyir: Peyğəmbərdən (s) eşitdim ki, buyurdu: «Sizə Hind udundan istifadə etməyi tapşırıram, çünki onda yeddi xəstəliyin şəfası var, onlardan biri de plevrit (ağ ciyər pərdəsinin iltihabı, sətəlcəm) xəstəliyidir.»*[51]

**عَنْ عَائِشَةَ: أَنَّ امْرَأَةً دَخَلَتْ عَلَى رَسُولِ اللَّهِ (ص) وَمَعَهَا صَبِيٌّ يَسِيلُ مَنْخَرَاهُ دَمًا، فَقَالَ رَسُولُ اللَّهِ (ص):" عَلامَ تَدْغَرْنَ أَوْلادَكُنَّ؟ أَلا أَخَذْتِ قُسْطًا بَحرِيًّا، ثُمَّ أَسْعَطْتِهِ إِيَّاهُ، فَإِنَّ فِيهِ شِفَاءً مِنْ سَبْعَةِ أَدْوِيَةٍ إِحْدَاهُنَّ ذَاتُ الْجُنُبِ ".**

*Aişə deyir ki, bir qadın yanında uşaqla Allahın rəsulunun (s) yanına gəldi amma o uşağın burnunun dəliklərindən qan gəlirdi. Peyğəmbər ona buyurdu: «Övladını nə ilə müalicə edirsən? Niyə «qusti bəhri» hazırlayıb uşağın burnuna qoymursan? Çünki onda yeddi xəstəliyin şəfası var ki, onlardan biri də plevrit (ağ ciyər pərdəsinin iltihabı, sətəlcəm) xəstəliyidir.»*[52]

## Təlbinə (kəpək, süd və baldan hazırlanan yemək) şəfadır

**عَنْ عَائِشَةَ زَوْجِ النَّبِيِّ (ص) فَإِنِّي سَمِعْتُ رَسُولَ اللَّهِ (ص) يَقُولُ: " التَّلْبِينَةُ مُجِمَّةٌ لِفُؤَادِ الْمَرِيضِ تَذْهَبُ بِبَعْضِ الْحُزْنِ "**

---

[50] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, c.5, s.2156*

[51] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, c.5, s.2155/2160; Müslim bin əl-Həccac əl-Neysəburi, əl-Müsnəd əs-səhih bi nəqlil ədli, c.4, s.1734*

[52] *Nurəddin əl-Heysəmi, Kəşf əl-Əstar an Zəvaid əl-Bəzzar ala əl-Kitab əs-Sittə, s.881*

*Aişə Peyğəmbərin (ə) belə buyurduğunu eşitdiyini nəql edir: «Təlbinə xəstə qəlbi möhkəm edib qəmini aradan aparar.»*[53]

**التلبينة حساء يتخذ من دقيق أو نخالة ويجعل فيه عسل وإنما سميت تلبينة تشبيهاً باللبن لبياضها ورقتها**

*Təlbinə un, və ya kəpək, bal və yağdan hazırlanan yeməkdir. Təlbinə adlanmasının səbəbi isə südə oxşamasıdır. (təlbinə də "ləbən" kökündən götürülüb və süd deməkdir.)*[54]

**عَنْ إِسْحَاقَ بْنِ أَبِي طَلْحَةَ، عَنِ النَّبِيِّ (ص) قَالَ: " فِي التَّلْبِينَةِ شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ ".**

*İshaq bin Əbi Təlhə Peyğəmbərdən (s) belə rəvayət edir: «Təlbiyədə hər dərdə şəfa var.»*[55]

## Namaz şəfadır

**عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: مَا هَجَّرْتُ، إِلَّا وَجَدْتُ النَّبِيَّ (ص) يُصَلِّي، قَالَ: فَصَلَّى، ثُمَّ قَالَ: " اشِكَنْبْ دَرْدْ؟ ". قَالَ: قُلْتُ: لَا، قَالَ: " قُمْ فَصَلِّ، فَإِنَّ فِي الصَّلَاةِ شِفَاءً ".**

*Əbu Hüreyrə Peyğəmbərin (s) ona belə buyurduğunu rəvayət edir: «Ey Əba Hüreyrə! Qarnın ağrayır?» Ərz etdim: «Bəli.» Buyurdu: «Qalx namaz qıl, çünki namazda şəfa var!»*[56]

## «La hovlə və la quvvətə» zikri şəfadır

**عَنْ بَهْزِ بْنِ حَكِيمٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، عَنِ النَّبِيِّ (ص) قَالَ: أَكْثِرُوا مِنْ قَوْلِ: لا حَوْلَ وَلا قُوَّةَ إِلا بِاللَّهِ، فَإِنَّهُ كَنْزٌ مِنْ كُنُوزِ الْجَنَّةِ، وَإِنَّ فِيهِ شِفَاءً مِنْ تِسْعَةٍ وَتِسْعِينَ دَاءً، أَوَّلُهَا الْهَمُّ.**

*Bəhz bin Həkim atasından, o da babasında, Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: «La hovlə və la quvvətə illa billah» zikrini*

---

[53] *Muhəmməd bin İsmayıl əl-Buxari, əl-Cami əs-Səhih, c.5, s.2067*

[54] *Əbd əl-Malik bin Muhəmməd əs-Saləbi, Fiqh əl-Luğət, c.1, s.58*

[55] *İbn Həcər əl-Əsqəlani, əl-Mətalib əl-aliyyə bi-zəvaid əl-məsanid əs-səmaniyyə, c.11, s.38*

[56] *Əhməd bin Hənbəl, əl-Musnəd, c.2, s.390*

*çox deyin! Çünki o cənnət xəzinələrindən biridir və 99 xəstəliyə dərmandır. O xəstəliklərin birincisi də qəm-qüssədir.»*[57]

## Mədinənin toz-torpağı şəfadır

**عَنْ إِسْمَاعِيل بْنِ مُحَمَّدِ بْنِ ثَابِتِ بْنِ قَيْسِ بْنِ شَمَّاسٍ، عَنْ أَبِيهِ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: قَالَ رَسُولُ اللَّهِ (ص): غُبَارُ الْمَدِينَةِ شِفَاءٌ مِنَ الْجُذَامِ.**

*İsmayıl bin Muhəmməd bin Sabit bin Qeys bin Şəmmas atasından Rəsulullahın (s) belə buyurduğunu nəql edir: «Mədinənin toz-torpağı cüzam xəstəliyinə şəfadır.»*[58]

## Xurma üst hissəsinin südü şəfadır

**عَنْ عَائِشَةَ، أَنَّ رَسُولَ اللَّهِ (ص) قَالَ: " إِنَّ فِي عَجْوَةِ عجوة الْعَالِيَةِ شِفَاءً ....**

*Aişə Rəsulullahın (s) belə buyurduğunu nəql etmişdir: «Aliyə acvəsində şəfa var...»*[59]

**Qeyd: Aliyə - Mədinənin Nəcd bölgəsində yerləşir. Acvə - Mədinədə yetişən ən keyfiyyətli, ən yumşaq xurma növüdür.**

## Çöl qoyununun quyruğu şəfadır

**أَنَسَ بْنَ مَالِكٍ، يَقُولُ: سَمِعْتُ رَسُولَ اللَّهِ (ص) يَقُولُ: " شِفَاءُ عِرْقِ النَّسَا، أَلْيَةُ شَاةٍ أَعْرَابِيَّةٍ تُذَابُ، ثُمَّ تُجَزَّأُ ثَلَاثَةَ أَجْزَاءٍ، ثُمَّ يُشْرَبُ عَلَى الرِّيقِ فِي كُلِّ يَوْمٍ جُزْءٌ "**

*Ənəs ibn Malik Peyğəmbərdən (s) belə eşitdiyini nəql edir: «Oturaq sinirinin iltihabının şəfası çöl qoyununun ərimiş quyruğudur. Belə ki, üç hissəyə bölünür və hər gün bir hissəsi içilir.»*[60]

## Dəvənin südü və bövlü (sidiyi) şəfadır

[57] *ət-Təbərani, Mucəm əl-Əusət, c.1, s.289*

[58] *Cəmaluddin əs-Suyuti, əl-Fəth əl-qədir fi dəmm əz-ziyadə ila əl-Cami əs-Sağir, c.2, s.242; əl-Zaid əl-Məkki əl-Hənəfi, Tarix Məkkə əl-Mukərrəmə və Məscid əl-Həram, c.1, s.234*

[59] *Müslim bin əl-Həccac əl-Neysəburi, əs-Səhih, c.3, s.1619; Şueyb bin Əli ən-Nəsai, əs-Sünən əl-kubra, c.4, s.369; Əhməd bin Hənbəl, əl-Musnəd, c.6, s.105*

[60] *əl-Hakim ən-Nisaburi, Müstədrək əla əs-Səhiheyn, c.4, s.229*

**أَنَّ ابْنَ عَبَّاسٍ قَالَ: قَالَ رَسُولُ اللَّهِ (ص): " إِنَّ فِي أَبْوَالِ الْإِبِلِ وَأَلْبَانِهَا، شِفَاءً لِلذَّرِبَةِ بُطُونُهُمْ "**

*İbn Abbas Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: «Dəvənin südü və bövlündə zərb xəstəliyi üçün şəfa var.»*[61]

**Qeyd:** Əgər «zərəb» oxusaq mədə həzminin pozuntusu xəstəliyi mənasındadır. Əgər «zərb» oxusaq qara ciyər xəstəliyi nəzərdə tutulur.[62]

## İstinca (ayaqyolunda su ilə paklanmaq) şəfadır

**عَنْ عَائِشَةَ " أَنَّ نِسْوَةً مِنْ أَهْلِ الْبَصْرَةِ دَخَلْنَ عَلَيْهَا، فَأَمَرَتْهُنَّ أَنْ يَسْتَنْجِينَ بِالْمَاءِ، وَقَالَتْ: مُرْنَ أَزْوَاجَكُنَّ بِذَلِكَ، فَإِنَّ النَّبِيَّ (ص) كَانَ يَفْعَلُهُ، وَهُوَ شِفَاءٌ مِنَ الْبَاسُورِ "**

*Aişədən rəvayət edilir: «Bir qrup Bəsrə qadını evimə gəldi və mən onlara istinca etmələrini əmr etdim.» Sonra dedim: «Bu işi öz həyat yoldaşlarınıza da etdirin, Peyğəmbər (s) də bunu edərdi, bunda babasil xəstəliyinə şəfa var.»*[63]

## Sina bitkisi şəfadır

**عَنْ أَسْمَاءَ بِنْتِ عُمَيْسٍ، قَالَتْ: قَالَ لِي رَسُولُ اللَّهِ (ص): "... فَقَالَ: " لَوْ كَانَ شَيْءٌ يَشْفِي مِنَ الْمَوْتِ كَانَ السَّنَا، أَوِ السَّنَا شِفَاءٌ مِنَ الْمَوْتِ.**

*Əsma bint Umeysdən Peyğəmbərin (s) belə buyurduğu nəql olunub: «Əgər ölüm üçün də bir dərman olsaydı, o səna bitkisi olardı, və yaxud səna ölümün dərmanıdır.»*[64]

## İnək südü şəfadır

**عَنْ طَارِقِ بْنِ شِهَابٍ، عَنْ عَبْدِ اللَّهِ، عَنِ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ، قَالَ: " مَا أَنْزَلَ اللَّهُ مِنْ دَاءٍ إِلا وَقَدْ أَنْزَلَ لَهُ شِفَاءً، وَفِي أَلْبَانِ الْبَقَرِ شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ ".**

---

[61] *ət-Təbərani, əl-Mucəm əl-kəbir, c.12, s.238*

[62] *Məcmə əl-bəhreyn, c.2 s.58*

[63] *Əhməd bin Hənbəl, əl-Musnəd, c.6, s.93*

[64] *Əhməd bin Hənbəl, əl-Musnəd, c.6, s.369; əl-Hakim ən-Nisaburi, Müstədrək əla əs-Səhiheyn, c.4, s.448*

*Tariq ibn Şihab Abdullahdan, o da Peyğəmbərdən (s) belə buyurduğunu nəql edir: «Allah elə bir xəstəlik nazil etməmişdir ki, onun şəfasını da nazil etməsin. İnəyin südündə bütün xəstəliklər üçün şəfa var.»*[65]

## Qara həlilə (ağacın meyvəsidir, tibbdə istifadə olunur) şəfadır

**عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَآلِهِ وَسَلَّمَ: " عَلَيْكُمْ بِالْهَلِيلِجِ الأَسْوَدِ، فَاشْرَبُوهُ، فَإِنَّهُ شَجَرَةٌ مِنْ شَجَرِ الْجَنَّةِ، طَعْمُهُ مُرٌّ، وَهُوَ شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ ".**

*Əbu Hüreyrə Peyğəmbərin (s) belə buyurduğunu nəql edib: «Sizə həlilə yeməyi tapşırıram, çünki o cənnət ağaclarından biridir. Dadı acı olsa da hər dərdə şəfadır.»*[66]

## Duz şəfadır

**عَنْ عَلِيٍّ رَضِيَ اللهُ عَنْهُ، قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ (ص): " إِذَا أَكَلْتَ فَابْدَأْ بِالْمِلْحِ، وَاخْتِمْ بِالْمِلْحِ، فَإِنَّ الْمِلْحَ شِفَاءُ سَبْعِينَ دَاءً، أَوَّلُهَا الْجُنُونِ وَالْجُذَامِ، وَالْبَرَصِ، وَوَجَعِ الأَضْرَاسِ، وَوَجَعِ الْحَلْقِ، وَوَجَعِ الْبَطْنِ ".**

*Əli (r.a) Peyğəmbərdən (s) rəvayət edir ki, o Həzrət (s) buyurub: «Yemək yediyiniz və bitirdiyiniz zaman duz yeyin. Çünki onda yetmiş xəstəliyin dərmanı var. Onlardan birincisi isə dəlilik, cüzam, bərəs, boğazın, dişin və qarının şişməsi xəstəlikləridir.»*[67]

## Pərpin (müalicəvi otdur) şəfadır

**إِبْرَاهِيمُ بْنُ مُحَمَّدٍ الأَسْلَمِيُّ، عَنْ ثَوْرٍ، قَالَ: مَرَّ النَّبِيُّ (ص) بِالرِّجْلَةِ، وَفِي رِجْلِهِ قُرْحَةٌ، فَدَاوَاهَا بِهَا، فَبَرَأَتْ، فَقَالَ النَّبِيُّ (ص): " بَارَكَ اللَّهُ فِيكِ، انْبُتِي حَيْثُ شِئْتِ، فَأَنْتِ شِفَاءٌ مِنْ سَبْعِينَ دَاءً، أَدْنَاهُ الصُّدَاعُ ".**

---

[65] *əl-Hakim ən-Nisaburi, Müstədrək əla əs-Səhiheyn, c.4, s.218; Şueyb b. Əli ən-Nəsai, əs-Sünən əl-kubra, c.4, s.371*

[66] *əl-Hakim ən-Nisaburi, Müstədrək əla əs-Səhiheyn, c.4, s.448*

[67] *İbn Həcər əl-Əsqəlani, əl-Mətalib əl-aliyyə bi-zəvaid əl-məsanid əs-səmaniyyə, c.11, s.38*

*İbrahim bin Muhəmməd əl-Əsləmi Səvrin belə dediyini nəql edib: Peyğəmbər riclə (pərpin) otunun yanından keçərkən ayağındakı əzilmiş yeri həmin otla müalicə etdi, sonra o ota üzünü tutub dedi: «Harada istəyirsən bit və inkişaf et! Çünki sən yetmiş dərdin dərmanısan. O dərdin ən balacası isə baş ağrısıdır.»*[68]

## Badımcan şəfadır

**عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: كُنَّا فِي وَلِيمَةِ رَجُلٍ مِنَ الأَنْصَارِ، فَأَتَى بِطَعَامٍ فِيهِ بَاذِنْجَانُ، فَقَالَ رَجُلٌ مِنَ الْقَوْمِ: يَا رَسُولَ اللَّهِ (ص) إِنَّ الْبَاذِنْجَانَ يُهَيِّجُ الْمرارَ وَيُيَبِّسُ اللِّسَانَ، فَأَكَلَ رَسُولُ اللَّهِ (ص) بَاذِنْجَانَةً فِي لُقْمَةٍ، فَأَعَادَ الرَّجُلُ، فَقَالَ رَسُولُ اللَّهِ (ص): " إِنَّمَا الْبَاذِنْجَانُ شِفَاءٌ مِنْ كُلِّ دَاءٍ، وَلا دَاءَ فِيهِ ".**

*İbn Abbas deyir ki, Ənsardan olan bir kişinin qonaqlığında idik. O kişi içində badımcan olan bir yemək gətirdi. Başqa bir kişi isə Həzrətə (s) ərz etdi: «Ya Rəsulallah! Badımcanın acılığı çoxdur və ağızı qurudur.» Həzrət (s) bir kiçik badımcanı bir tikəyə yedi. Kişi yenidən dediyi sözləri təkrar etdi. Həzrət (s) buyurdu: «Badımcan hər dərdin dərmanıdır və onda heç bir xəstəlik yoxdur.»*[69]

## Pendir qozla birgə şəfadır

**عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: قَالَ النَّبِيُّ (ص): الْجُبْنُ دَاءٌ فَإِذَا أُكِلَ بِالْجَوْزِ فَهُوَ شِفَاءٌ.**

*İbn Abbas Peyğəmbərin belə buyurduğunu nəql edir: «Pendir xəstəlikdir, lakin qozla yeyilsə şəfadır.»*[70]

## Möminin dəstəmaz suyunun artığını içmək şəfadır

**عَبْدَ اللَّهِ بْنَ بِشْرٍ، وَجَمَاعَةً مِنْ أَصْحَابِ النَّبِيِّ (ص) يَقُولُونَ: سَمِعْنَا النَّبِيَّ (ص) يَقُولُ: " الشُّرْبُ مِنْ فَضْلِ وُضُوءِ الْمُؤْمِنِ فِيهِ شِفَاءٌ مِنْ سَبْعِينَ دَاءَ أَدْنَاهُمُ الْهَمُّ".**

---

[68] əl-Haris bin Əbi Usamə/əl-Hafiz Nurəddin əl-Heysəmi, Buğyat əl-bahis ən zəvaid Musnəd əl-Haris, c.2, s.579

[69] Əbd ər-Rəhman bin Muhəmməd bin Əhməd ən-Nisaburi, Fəvaid Əbi Əli bin Fəzələ, s.4

[70] Əbd əl-Kərim bin Muhəmməd əl-Qəzvini, ət-Tədvin fi əxbar Qəzvin, c.1, s.457

*Abdullah ibn Bişr və bir qrup səhabə Peyğəmbərdən (s) belə nəql edirlər ki, buyurur: «Möminin dəstəmaz suyunun artığını içmək yetmiş xəstəliyə şəfadır, o xəstəliyin ən yüngülü qəm-qüssədir.»*[71]

## Zəm-zəm suyu şəfadır

**عَنِ ابْنِ عَبَّاسٍ رَضِيَ اللَّهُ عَنْهُمَا، قَالَ: قَالَ رَسُولُ اللَّهِ (ص): " مَاءُ زَمْزَمَ لِمَا شُرِبَ لَهُ، فَإِنْ شَرِبْتَهُ تَسْتَشْفِي بِهِ شَفَاكَ اللَّهُ، وَإِنْ شَرِبْتَهُ مُسْتَعِيذًا عَاذَكَ اللَّهُ، وَإِنْ شَرِبْتَهُ لِيَقْطَعَ ظَمَأَكَ قَطَعَهُ ".**

*İbn Abbas Rəsulullahın (s) belə buyurduğunu nəql edir: «Zəmzəm suyu içilmək üçündür, əgər şəfa tapmaq məqsədilə içsən, sənə şəfa bəxş edər. Əgər (Allaha) pənah aparmaq üçün içsən, Allah sənə pənah verər. Əgər susuzluğunun aradan getməsi üçün içsən susuzluğunu aradan aparar.»*[72]

# Şəfa tələb etməkdə əsli-sünnənin əməli üslubu

## İbn Teymiyyənin qüslünün suyu şəfadır

İbn Kəsir Dəməşqi ustadı İbn Teymiyyə haqqında yazır ki, onun cənazəsi dəfn olan zaman camaat xariqul adə işlər gördülər. O cümlədən bir qrup insan onun qüsl suyunu qalanını içdilər.

**وحضَرها نساءٌ كثيرات بحيثُ حُزِرْنَ بخَمْسَةَ عَشَرَ ألفا (امرأة غير اللاتي كن على الاسطحة وغيرهن الجميع يترحمن ويبكين عليه فيما قيل) وأما الرجال فحُزِرُوا بستين ألفا وأكثر إلى مائتي ألفٍ وشَرِبَ جماعةٌ الماءَ الذي فَضَلَ من غَسْلِهِ واقْتَسَمَ جماعةٌ بَقِيَّةَ السِّدرِ الذي غُسّلَ به وقيل: إن الطاقِيّةِ التي كانت على رأسه دُفِعَ فيها خَمْسُمائةِ درهمٍ وقيل: أن الخَيْطِ الذي كان فيه الزِّئْبَقُ الذي كان في عُنُقِه بسبب القَمْلِ مائة وخمسونَ درهماً....**

---

[71] Əbd ər-Rəhman bin əl-Əuzi, əl-İləl əl-mutənahiyə fi əl-əhadis əl-vəhiyə, c.1, s.352

[72] əl-Hakim ən-Nisaburi, Müstədrək əla əs-Səhiheyn, c.1, s.646

*«İbn Teymiyyənin təşyii cənazəsində çoxlu qadınlar iştirak edirdi, belə ki, on beş min nəfər təxmin olunurdu. Amma bu sayın evlərin damlarından da baxanlara aidiyyatı yoxdur. Hamı İbn Teymiyyə üçün ağlayırdı və onun üçün rəhmət diləyirdilər. Kişilərin sayı isə altmış mindən iki yüz minədək təxmin olunurdu. Cənazədə iştirak edənlərin bir qrupu İbn Teymiyyənin qüslünün suyunu içirdilər. Bir qrupu isə onun qüsl verilmiş sidrini aralarında bölüşdürdülər. Deyirlər ki, onun başına qoyduğu papağı beş yüz dirhəmə aldılar. Bədəninin şişlərini aradan qaldırmaq üçün onun üstünə civə ilə hopturulmuş ip (və ya kəndir) atılmışdı. Bir nəfər onu yüz əlli dirhəmə aldı...»*[73]

İbn Teymiyyənin tərəfdarları onun qüsl suyunu şəfa tapmaq məqsədilə içdikləri halda, niyə Kərbəla torpağı və s. müqəddəs bildiyimiz şeylərdə səhv tuturlar?

## İbn Teymiyyənin qəbrinin torpağı şəfadır

Nasiruddin əd-Dəməşqi İbn Teymiyyənin qəbinin torpağının şəfalı olmasını onun fəzilətlərindən biri hesab edir. O, öz «ər-Rədd əl-vafir» kitabında yazır:

**قال علي بن عبد الكريم ابن الشيخ سراج الدين البغدادي الاصل البطايحي المزي أخبرني بشيء غريب قال: كنت شابا وكانت لي بنت حصل لها رمد وكان لنا اعتقاد في ابن تيمية وكان صاحب والدي ويأتي الينا ويزور والدي فقلت في نفسي لآخذن من تراب قبر ابن تيمية فلأكحلها به فانه طال رمدها ولم يفد فيها الكحل فجئت الى القبر فوجدت بغداديا قد جمع من التراب صررا فقلت ما تصنع بهذا؟ قال أخذته لوجع الرمد أكحل به أولادا لي فقلت: وهل ينفع ذلك؟ فقال: نعم! وذكر أنه جربه فازددت يقينا فيما كنت قصدته فأخذت منه فكحلتها وهي نائمة فبرأت قال وحكيت ذلك لابن قاضي الجبل يعني الامام شرف الدين أبا العباس أحمد ابن الحسن بن عبد الله بن شيخ الاسلام أبي عمر**

[73] *İbn Kəsir əd-Diməşqi, əl-Bidayə vən-Nihayə, c.14, s.136*

**المقدسي قال وكان يأتي الينا فأعجبه ذلك وكان يسألني ذلك بحضرة الناس فأحكيه ويعجبه ذلك.**

*Əli bin əl-Kərim mənə maraqlı bir dastan nəql elədi:*

*«Mən cavan idim və bir qızım var idi. Onun gözü ağrıyırdı. Bizim İbn Teymiyyəyə əqidəmiz var idi. O, atamın dostu idi, bizim yanımıza gəlir və atamla görüşürdü. Qızımın gözünün xəstəliyi uzunmüddətli olduğu üçün və heç bir sürmənin də ona xeyri olmadığı üçün öz-özümə dedim ki, İbn Teymiyyənin qəbrinin torpağından götürüb onun gözünə sürtüm. Sonra ibn Teymiyyənin qəbrinin üstünə getdim. Gördüm ki, bir Bağdadlı kişi qəbrin torpağını kisələrə yığıb. Mən onları nə etdiyini soruşduqda, o mənə dedi: «Mən bunları göz ağrısı üçün götürüb övladlarımın gözlərinə sürmə kimi sürtürəm.» Soruşdum: «Bu torpağın faydası varmı?» Dedi: «Bəli, mən bunu təcrübə etmişəm.» Mənim də yaqinim artdı. Bir az torpaqdan götürüb yatan yerdə qızımın gözlərinə sürtdüm. Dərhal gözü görməyə başladı. Bu dastanı Şeyxul-islam Əbu Ömər Məqdisi üçün danışdım, o da təəccüb etdi. Bu hadisəni camaatın arasında da soruşdu. Mən də yenidən bu hadisəni danışdım.»*[74]

İbn Teymiyyənin qəbrinin torpağı şəfa verə bilirsə, Allahın bu şəfa qüdrətini cənnət gənclərinin ağası İmam Hüseynin (ə.s) qəbrinin torpağında qoymasının nə eybi var ki?

***əl-Buxarinin qəbrinin torpağı şəfadır***

əz-Zəhəbi öz kitabında əl-Buxarinin vəfatı və dəfni barəsində yazır:

[74] *İbn Nasiruddin əd-Diməşqi, ər-Rədd əl-vafir əla min zama ənnə min səmma İbn Teymiyyə Şeyxul-İslam kafir, s.39*

**«واما التراب، فانّهم كانوا يرفعون عن القبر، حتّى ظهر القبر، ولم يكن يُقدَر على حفظ القبر بالحراس، وغلبنا على أنفسنا فنصبنا على القبر خشباً مُشَّبكاً، لم يكن أحدٌ يقدر على الوصول إلى القبر»**

*«Camaat onun qəbrinin bütün torpağını götürdülər. O vəziyyətə gətirdilər ki, qəbrin üstü tamamilə açıq qaldı və cəsəd göründü. Hətta mühafizəçilər də qəbri qoruya bilmirdilər. Biz məğlub olduq, amma sonra qəbrin üstünə heç kəsin əl çatmayacağı təqdirdə bir zərih basdırdıq.»*[75]

Görəsən hicri 256-cı ildə Səmərqənd camaatı kafir və müşrik idilər ki, Məhəmməd bin İsmayıl əl-Buxarinin qəbrinin torpağından təbərrük götürürdülər? Görəsən kafirlər dəfn-kəfən işlərilə məşğul idilər. Bununla belə onlar müsəlman idilər, əhli-sünnənin əməli üslubu da belə idi.

## Həzrət Rəsulullahın (s) qəbrindən İbn Münkədirin şəfa tələb etməsi

**إسماعيل بن يعقوب التيمي قال كان ابن المنكدر يجلس مع أصحابه فكان يصيبه صمات فكان يقوم كما هو حتى يضع خده على قبر النبي (ص) ثم يرجع فعوتب في ذلك فقال إنه يصيبني خطر فإذا وجدت ذلك استعنت بقبر النبي (ص) وكان يأتي موضعا من المسجد يتمرغ فيه ويضطجع فقيل له في ذلك فقال إني رأيت النبي (ص) في هذا الموضع.**

*İsmayıl bin Yaqub ət-Teymi dedi: İbn Münkədir öz səhabələrilə səssiz oturmuşdu. Birdən qalxıb yanaqlarını Peyğəmbərin (s) qəbrinin üstünə qoydu, sonra geri qayıtdı. Sonra şagirdləri onu sual atəşinə tutdular və o da cavabında dedi: «Mən iflic olmuşam, bunu aradan qaldırmaq üçün Peyğəmbərin qəbrindən kömək dilədim.» Bəzən də məscidin bir yerində uzanır və diyirlənirdi. Ondan bunu səbəbini*

[75] *Şəms əd-Din əz-Zəhəbi, Siyər əlam ən-nubəla, c.12, s.467*

*soruşduqda belə cavab verirdi: «Bu yerdə mən Peyğəmbəri (s) görmüşdüm.»*[76]

İndi bizim sələfi ekspertlərinə sualımız budur ki, yuxarıda qeyd edilənlər Allahın iznilə şəfa ola bilirsə, bəs Allahın bu xüsusiyyəti İmam Hüseynin (ə.s) qəbrinin torpağında qoymasının nə maneəsi var?

Niyə Səudiyyə kralı Məlik Abdullah dəfələrlə Avropaya və Amerikaya müalicəyə gedir, bu saydıqlarımızdan istifadə etmir? Camaat Mədinə şəhərinin torpağından istifadə etməyə imkanları ola-ola ümumiyyətlə bu şəhərdə xəstəxana və klinikalar niyə mövcuddur? Niyə Mədinə torpağını əhli-sünnənin digər davamçıları üçün ortaya çıxarmırsınız ki, camaat ondan istifadə etməklə şəfa tapsınlar və bu qədər xərcə ehtiyacları olmasın?

Digər bir tərəfdən, özlərini əhli-sünnə hesab edən sələfilər İmam Hüseyn (ə) türbətinin şəfa verməsini qəbul etməməklə qalmayıb, ondan şəfa kimi istifadə edənləri "filankəs torpaq yeyir" deyə məsxərəyə qoyurlar. Ancaq bu insanlar özlərini əhli-sünnə hesab etsələr də, əhli-sünnə fiqhindən xəbərsizdirlər. Bizə də öz növbəmizdə əziz oxucuları əhli-sünnə alimlərinin torpaq yeməyin hökmü barədə fikirləri, bu haqda gələn hədislər və onların etibarlılığı barədə qeydləri haqqında məlumatlandırmağa çalışacağıq.

## Əhli-sünnə alimlərinin nəzərində torpaq yeməyin hökmü

### 1. İbn Həzm

**مسألة 1030 – وأكل الطين لمن لا يستضر به حلال ، وأما كل ما يستضر به من طين أو اكثار من الماء أو الخبز فحرام لأنه ليس مما فصل تحريمه لنا فهو حلال ، وأما كل ما أضر فهو حرام لقول النبي صلى الله عليه وسلم : ( ان الله كتب الاحسان على ما كل**

---

[76] *Şəms əd-Din əz-Zəhəbi, Siyər əlam ən-nubəla, c.5, s.358-359*

شئ * روينا من طريق شعبة . وسفيان وهشيم . ومنصور بن المعتمر . وابن علية . وعبد الوهاب بن عبد المجيد كلهم عن خالد الحذاء عن أبي قلابة عن أبي الأشعث الصنعاني عن شداد بن أوس أنه حفظ عن رسول اله صلى الله عليه وسلم أنه قال ( ان الله كتب الاحسان على كل شئ ) وذكر باقي الحديث ، فمن أضر بنفسه أو بغيره فلم يحسن ومن لم يحسن فقد خالف كتاب الله تعالى الاحسان على كل شئ ، وقد روى في تحريم الطين آثار كاذبة*

*Məsələ 1030: Zərəri olmadığı təqdirdə hər hansı bir şəxsin torpaq yeməsi halaldır. Amma əgər torpaq, həmçinin çoxlu su içmək və çörək yemək insana zərər versə, onun yeyilməsi haramdır. Bu (yəni torpaq yemək), haramlığı bizə açıqlanan şeylərdən olmadığı üçün halaldır. Zərəri olan hər şey isə haramdır. Çünki həzrət Peyğəmbər (s) buyurub: «Həqiqətən Allah hər bir şeyə yaxşılıq etməyi vacib edib.» Biz bu hədisi Şeybə, Sufyan və Həşim, Mənsur bin Mutəmir, İbn Uləyyə, Əbd əl-Vəhhab bin Əbd əl-Məciddən, bunların da hamısı Xalid əl-Həzadan, o, Əbu Qəlabədən, o, Əbul-Əşəs əs-Sənanidən, o da Şəddad bin Ausdan nəql etmişik. O, (Şəddad bin Aus) Rəsulullahın (s) belə buyurmasını nəql edir ki: «Həqiqətən Allah hər bir şeyə yaxşılıq etməyi vacib edib.......» Özünə və ya başqasına zərər vurmaq yaxşılıq deyil. Yaxşılıq etməyən kəs Allahın hər bir şeyə qarşı yaxşılıq etmək barəsindəki əmrinə qarşı çıxıb. Torpağın (yeyilməsinin) haram olması barəsində bir sıra yalançı hədislər nəql edilmişdir.*[77]

## 2. İbn Qudamə

Beləliklə, İbn Həzmin bəyan etdiyi kimi torpaq yemək zərər verməDiyi təqdirdə halaldır. Çünki İbn Həzm bu barədə deyir: *«Torpaq,*

[77] *İbn Həzm, əl-Muhəlla, c.7, s.430*

*həmçinin çoxlu su içmək və çörək yemək insana zərər versə, onun yeyilməsi haramdır .»*

**فصل / قال أحمد : أكره أكل الطين ولا يصح فيه حديث إلا أنه يضر بالبدن ويقال إنه ردئ وتركه خير من أكله وإنما أكرهه أحمد لأجل مضرته فإن كان منه ما يتداوى به كالطين الأرمني فلا يكره ، وإن كان مما لا مضرة فيه ولا نفع كالشئ اليسير جاز أكله لأن الأصل الإباحة والمعنى الذي لأجله كره ما يضر وهو منتف ههنا فلم يكره**

*Fəsil: Əhməd (bin Hənbəl) deyir: Torpaq yemək məkruhdur. Bu barədə olan hədislərin heç biri - bədənə zərər vurması istisna olmaqla – səhih deyil. Bəzən deyilir ki, torpaq yemək pis işdir və onun tərk edilməsi daha yaxşıdır. Əhməd onu ancaq zərərli olduğu üçün məkruh bilir. Amma əgər o, müalicə məqsədi ilə istifadə edilən torpaqlardan, məsələn «erməni torpağı» olsa, məkruh deyil. Nə zərəri, nə də xeyri olmayan azca torpaq yemək isə caizdir. Çünki (bütün məsələlərə yanaşmada) təməl qayda onun «mübah» (halal, caiz) olmasıdır. Burada məkruh sayılmağa səbəb olan məna – zərər də yoxdur. Buna görə də burada məkruhluq da yoxdur.*[78]

İbn Qudamənin dediyi bizim əvvəlcə dediyimizi təsdiqləyir. Məlum olduğu kimi, məkruhu yerinə yetirmək caizdir. Çünki məkruh haram kimi deyil. Əhməd bin Hənbəlin nəzərincə torpaq yemək caiz, amma məkruhdur. Bəs nə üçün sələfilər torpaq yeməyi caiz bilən imamları Əhməd bin Hənbələ gülmürlər?! Yoxsa ona hər şey olar?!

### 3. *ən-Nəvəvi*

**فرع /هل يحرم أكل الطين قال الروياني اختلف أصحابنا منهم من قال يحرم الطين قليله وكثيره وهو اختيار مشايخ طبرستان الامام أبى عبد الله الحناطي وأبى على الزجاجي والإمامين جدي ووالدي رحمهم الله واختاره القفال المروزي ومنهم من قال لا يحرم ولكن**

---

[78] *İbn Qudamə, əl-Muğni, c.11, s.88*

**يكره وهو اختيار مشايخ خراسان وهذا إذا لم يضر لقلته فإن كان كثيرا يضر فهو حرام وبه أفتى وسمعت الشيخ الحافظ البيهقي بنيسابور يقول لم يصح نص عن رسول الله صلى الله عليه وسلم في تحريم قليله وهذا هو الصحيح عندي انتهى كلام الروياني في البحر.**

*Bölmə: «Torpaq yemək haramdırmı?» ər-Ruyani deyir: Alimlərimiz arasında bu barədə fikir ayrılığı var. Onların bəzisi torpaq yeməyi az və ya çoxluğundan asılı olmayaraq haram bilirlər. Təbəristan şeyxləri - İmam Əbu Abdullah əl-Hənati, Əbu Əli əz-Zucaci, hər ikisi imam olmuş babam və atam bu fikirə qail olublar. Əl-Qaffal əl-Məruzi də həmin fikirdə olub. Bəzi alimlərimiz isə torpaq yeməyin haram olmadığını, sadəcə məkruh olduğunu deyiblər. Bu, Xorasan şeyxlərinin nəzəridir. Bu məkruhluq onun az olduğu üçün zərər vermədiyi təqdirə aiddir. Lakin əgər çox olsa və zərər versə, o zaman haramdır. Alimlər də bu cür fətva veriblər. Nişapurda Şeyx Hafiz əl-Beyhəqidən belə deməsini eşitdim ki: «Peyğəmbərdən (s) onun azının (az torpaq yeməyin) haram olması barədə nəql edilən heç bir hədis səhih deyil.» Mənim nəzərimcə də bu, düzgün nəzərdir.*[79]

### 4. Şeyx Muhəmməd bin Huseyn bin Əli ət-Turi əl-Qadiri əl-Hənəfi

Şeyx Muhəmməd bin Huseyn bin Əli ət-Turi əl-Qadiri əl-Hənəfi «Təkmilət əl-bəhr ər-raiq» kitabında yazır:

**وأكل الطين مكروه . وفي فتاوي أبي الليث ذكر شمس الأئمة إذا كان يخاف على نفسه من أكل الطين بأن كان يورث علة لا يباح له أكل الطين ، وكذا كل شئ أكله يورث ذلك ، إن كان يتناول منه قليلا ويفعل أحيانا لا بأس به . وأكل الطين البحاري لا بأس به ما**

[79] ən-Nəvəvi, əl-Məcmu, c.10, s.493

**لم يسرف وكراهة أكله لا لحرمته بل لأنه يهيج الدم ، والمرأة إذا اعتادت أكل الطين تمنع من ذلك إذا كان يوجب النقصان في جمالها.**

*Torpaq yemək məkruhdur. «Fətava Əbu Leys» kitabında (belə qeyd edilib). Şəmsul-Əimmə qeyd edib ki, əgər şəxs torpaq yeməyin ona xəstəlik gətirəcəyindən qorxsa, onun torpaq yeməsi caiz deyil. Yeyilməsi xəstəliklə nəticələnən hər şey belədir. Əgər (torpağı) az yesə və bunu hərdən etsə, o zaman heç bir problem yoxdur. Dəniz torpağını həddi aşmadan yemək günah deyil. Onun məkruh olması haramlığına görə deyil, qan təzyiqini artırdığı üçündür. Əgər qadın torpaq yeməyə adət etmiş olsa və əgər bu, onun gözəlliyinə xələl gətirərsə, onun bu işinin qarşısı alınmalıdır.*[80]

### 5. *əl-Bəhuti*

əl-Bəhutinin «Kəşf əl-qina» kitabında deyilir:

**ويكره أكل تراب وفحم وطين لضرره (وهو) أي أكل الطين (عيب في المبيع) نقله ابن عقيل لأنه لا يطلبه إلا من به مرض وقوله : (لأنه يضر البدن به) علة لكراهة أكل الطين ونحوه (فإن كان منه) أي الطين (ما يتداوى به كالطين الأرمني لم يكره) لأنه لا ضرر فيه (وكذا يسير تراب ، وطين) بحيث لا يضر فلا يكره لانتفاء علة الكراهة.**

*Torpaq, palçıq və kömür yemək ziyan olduğu üçün məkruhdur. (O) yəni palçıq yemək (satılan şeydə eybdir). Bunu İbn Əqil nəql etmişdir. Çünki bunu ancaq xəstəliyi olan şəxs istəyə bilər. Onun «"çünki bədənə ziyandır» ifadəsi palçıq və bu kimi şeyləri yeməyin məkruh olmasının səbəbini bildirir. Əgər o, (yəni, həmin torpaq) dərman məqsədi ilə istifadə edilən torpaqlardan, məsələn «erməni torpağı» olsa, məkruh deyil. Çünki onun heç bir ziyanı yoxdur. Az*

---

[80] *Muhəmməd ət-Turi əl-Qadiri, Təkmilət əl-bəhr ər-raiq, c.2, s.338*

*torpaq və palçıq da elədir. Belə ki, zərər olmasa məkruh da deyil. Çünki burada məkruhluğun səbəbi aradan qalxır.*[81]

Əziz oxucu, «az torpaq və palçıq da elədir» sözünə diqqət yetirin. Çünki şiə hədis və alimlərindən gətirdiyimiz sitatlara görə də İmam Huseynin (ə) qəbrinin torpağından az miqdarda yemək olar.

### 6. Əbd əl-Kərim ər-Rafii

Əbd əl-Kərim ər-Rafii «Fəth əl-əziz» kitabında yazır:

**قال ( فضلنا على الناس بثلاث جعلت لنا الأرض مسجدا وجعل ترابها طهورا ) عدل إلى ذكر التراب بعد ذكر الأرض ولولا اختصاص الطهورية بالتراب لقال جعلت لنا الأرض مسجدا وطهورا ثم اسم التراب لا يختص ببعض الألوان والأنواع ويدخل فيه الأصفر وهو ما لا يخلص بياضه والأصفر والأسود ومنه طين الدواة والأحمر ومنه الطين الأرمني الذي يوكل تداوياً**

*(Belə) deyir: "(Allah) üç cəhətə görə bizi insanlardan üstün edib: bizim üçün yer səcdəgah, torpaq isə paklayıcı təyin edilib." Yeri deyəndən sonra torpağı qeyd edib. Əgər paklayıcılıq xüsusiyyəti torpağa məxsus olmasaydı, o zaman "bizim üçün yer səcdəgah və paklayıcı təyin edilib" deyilərdi. Həmçinin torpaq adı onun ancaq bəzi rəng və növlərində məhdudlaşmır və sarı rəng(li torpaq) da ora (torpaq kateqoriyasına) daxildir. Həmin torpaq ağlığı, sarılığı və qaralığı xalis olmayandır. Onun növlərindən biri də «dərman torpağı» və qırmızı torpaqdır. Həmin torpaqlardan biri də dərman kimi yeyilən «erməni torpağı»dır.*[82]

---

[81] *əl-Bəhuti, Kəşf əl-qina, c.6, s.246*

[82] *Əbd əl-Kərim ər-Rafii, Fəth əl-əziz, c.2, s.310*

## Əhli-sünnə mənbələrində torpaq yeməyin haram olmasını deyən bütün hədislər zəifdir

Əhli-sünnə mənbələrində sələfilərin torpaq və palçıq yeməyin haram olması üçün dəlil olaraq götürdükləri bəzi hədislər nəql edilmişdir. Onların hamısı zəif, sənədi etibarsız hədislərdir. Biz bütün qapıların onların üzünə bağlanması üçün indi sizə bu hədislər barədə bəzi alimlərin fikirlərini nəql edəcəyik.

### 1. *İbn Teymiyyə*

**وكذلك ما يجمعه عبد الرحمن بن منده مع أنه من أكثر الناس حديثا لكن يروي شيئا كثيرا من الأحاديث الضعيفة ولا يميز بين الصحيح والضعيف . وربما جمع بابا وكل أحاديثه ضعيفة كأحاديث أكل الطين وغيرها**

*Əbd ər-Rəhman bin Mundə çoxlu hədis nəql etməsinə baxmayaraq, çoxlu zəif hədislər də nəql etmişdir. O, zəif və səhih hədisi bir-birindən ayırmır. Bəzən bir bab cəm edir, həmin babın bütün hədisləri zəif olur. Torpaq yemək barədə olan hədislər kimi...*[83]

### 2. *Hafiz Əbu Bəkr bin Huseyn əl-Beyhəqi*

əl-Beyhəqi «əs-Sünən əl-kubra» kitabında «Torpaq yemək barədə nəql edilənlər» babında deyir:

**قد روى في تحريمه أحاديث لا يصح شئ منها ... ( قال الشيخ ) وهذا لو صح لم يدل على التحريم وإنما دل على كراهية الاكثار منه والاكثار منه ومن غيره حتى يضر ببدنه ممنوع والله أعلم**

*Torpaq yeməyin haram olması haqqında bir sıra hədislər nəql edilib ki, onların heç biri səhih deyillər. .... (Şeyx deyir: ) Bu səhih olsa belə, haramlığa dəlalət etmir, çox torpaq yeməyin məkruhluğuna dəlalət edir. Torpaqdan çox yemək, və ya başqa bir şeydən çox yemək*

[83] *İbn Teymiyyə, Məcmu əl-fətava, c.3, s.434*

*bədənə zərər verdiyi hallar üçün qadağan olunub. Daha doğrusunu Allah bilir.*[84]

3. **Şeyx əl-İslam Abdullah bin Mübarək**

**(أخبرنا) أبو عبد الله الحافظ حدثني أبو بكر محمد بن عبد الله الجراحي بمرو ثنا يحيى بن ساسويه ثنا عبد الكريم السكري ثنا وهب بن زمعة انا سفيان بن عبد الملك قال وذكر لعبد الله يعنى ابن المبارك حديث ان أكل الطين حرام فأنكره وقال لو علمت أن رسول الله صلى الله عليه وسلم قاله لحملته على الرأس والعين والسمع والطاعة.**

*Bizə Hafiz Əbu Abdullah xəbər verdi (və dedi): mənə Əbu Bəkr Muhəmməd bin Abdullah əl-Cərahi Mərvədə rəvayə etdi (və dedi:), bizə Yəhya bin Sasəveyh rəvayət etdi (və dedi): bizə Əbd əl-Kərim əs-Sukri rəvayət etdi (və dedi): bizə Vəhb bin Zəmə rəvayət etdi (və dedi): bizə Süfyan bin Əbd əl-Məlik rəvayət etdi və dedi:, Abdullah bin Mübarəkə «torpaq yemək haramdır» hədisini nəql etdilər. O, həmin hədisi inkar edərək dedi: «Əgər onun Peyğəmbər kəlamı olduğunu bilsəydim, o zaman onu başımın, gözümün və qulağımın üstündə gəzdirər və ona itaət edərdim.»*[85]

İbn Həcər əl-Əsqəlani də bu məsələni əl-Beyhəqidən nəql edir.

**قال البيهقي وقيل لعبد الله بن المبارك حديث إن أكل الطين حرام فأنكره**

*əl-Beyhəqi deyir: «Abdullah ibn Mubarəkə «torpaq yemək haramdır» hədisini nəql etdilər və o, bunu inkar etdi.»*[86]

4. **Nasir əd-Din əl-Albani**

**ضعيف جدا.**

**رواه أبو نعيم في " أخبار أصبهان " ( 101/2 ) ، والديلمي ( 131/1/1 ) عن عمر بن شبة : حدثنا إبراهيم بن بكر عن أبي عاصم العباداني عن أبان عن أنس مرفوعا.**

---

[84] *əl-Beyhəqi «əs-Sünən əl-kubra», c.10, s.20*

[85] *əl-Beyhəqi əs-Sünən əl-kubra, c.10, s.20*

[86] *İbn Həcər əl-Əsqəlani, ət-Təlxis, c.4, s.294, h.2472*

**قلت : وهذا إسناد هالك ؛ مسلسل بالعلل**

*Çox zəifdir.*

*Onu Əbu Naim «Əxbaru Əsbəhan» kitabında (2/101) və əd-Deyləmi (1/1/131) Ömər bin Şubədən nəql edir ki, İbrahim bin Bəkr bizə Əbi Asim əl-İbadanidən, o da Əbandan, o da Ənəsdən «mərfu» olaraq nəql edib.*

*Mən deyirəm: «Bunun sənədi zəifdən də aşağıdır və ravilər silisləsində nöqsanlar var.»*[87]

## 5. Əhməd bin Hənbəl və İbn əl-Cəuzi

İbn əl-Cəuzi «əl-Məuzuat» kitabında deyir:

**قال أحمد بن حنبل : ما أعلم في الطين شيئا يصح ، وقال مرة : ليس فيه شئ يثبت إلا أنه يضر بالبدن. وكذلك نقل عنه ابن قدامة في المغنى وقد مر.**

*Əhməd bin Hənbəl belə deyib: «Torpaq haqqında səhih bir şey bilmirəm.» Həmçinin başqa bir yerdə deyib: «Torpaq haqqında olan hədislərdən ancaq onun bədənə zərər olması sabit olur.» İbn Qudamə də «əl-Muğni» kitabında ondan o cür nəql edib və biz əvvəldə ona işarə etdik.*[88]

İbn əl-Cəuzi bu hədisi uydurma hədislər haqqındakı kitaba daxil etməklə öz mövqeyini bildirmiş olur.

**قال العقيلي : ليس لهذا الحديث أصل ولا يحفظ من وجه يثبت**

*əl-Uqəyli deyir: «Bu hədisin əsli yoxdur və o, sabit bir yolla nəql olunmayıb.»*[89]

## 6. əl-Əcluni

---

[87] *Nasir əd-Din əl-Albani, Silsilət əz-zuafə və əl-məuzuə, c.6, s.437*

[88] *İbn əl-Cəuzi, əl-Məuzuat, c.3, s.34*

[89] *İbn əl-Cəuzi, əl-Məuzuat, c.3, s.34*

**وقال في الدرر تبعا للزركشي أحاديث أكل الطين وتحريمه صنف فيه بعضهم جزءا وأحاديثه لا تصح انتهى**

*O, «əd-Durər» kitabında əz-Zərkəşiyə tabe olaraq deyir: «Torpaq yemək və onun haramlığı haqqında olan hədislərin bir qismi cüzi xarakterlidir və o barədə olan hədislər səhih deyil.»[90]*

7. ***Şəms əd-Din əz-Zəhəbi***

**قال رسول الله (ص) : ( أكل الطين يورث النفاق ) هذا الحديث ليس بصحيح يشبه أن يكون موضوعاً تداوله قوم ليسوا بثقات.**

*Allah Rəsulu (s) buyurub: «Torpaq yemək nifaqa səbəb olur.» Bu hədis səhih deyil. Uydurma hədisə oxşayır. Bu hədisi qeyri-mötəbər dəstə nəql edib.[91]*

8. ***İbn əl-Cəuziyyə***

**طين : ورد في أحاديث موضوعة لا يصح منها شيء مثل حديث : (من أكل الطين ، فقد أعان على قتل نفسه) ، ومثل حديث : (يا حميراء لا تأكلي الطين فإنه يعصم البطن ، ويصفر اللون ، ويذهب بهاء الوجه) ، وكل حديث في الطين فإنه لا يصح ، ولا أصل له عن رسول الله (ص) ، إلاّ أنه رديء مؤذ ، يسد مجاري العروق ، وهو بارد يابس ، قوي التجفيف ، ويمنع إستطلاق البطن ، ويوجب نفث الدم وقروح الفم.**

*Torpaq – Torpaq barəsində bir sıra uydurma hədislər nəql edilib və onların heç biri səhih deyil. Onlardan biri bu hədisdir ki: "Kim torpaq yesə, öz ölümünə kömək etmiş olar". (Həmçinin bu hədis kimi): "Ey Humeyra, torpaq yemə. Həqiqətən o qarnı bərkidir, rəngi saraldır və üzün parıltısını aradan aparır. Torpaq haqqında olan heç bir hədis səhih deyil və həmin hədislərin peyğəmbərə gedib çıxmağının heç bir əsli yoxdur. Düzdü torpaq pis və əziyyət verən*

---

[90] *əl-Əcluni, Kəşf əl-xifa, c.1, s.174 və ya c.1, s.203*

[91] *əz-Zəhəbi, Təzkirət əl-huffaz, c.4, s.1475*

> *bir şeydir, damarların tutulmasına səbəb olur, təbiətcə soyuq və qurudur, guclu quruluq gətirir, qarnın boşalmasına mane olur. O həmçinin ağızdan qan gəlməsinə və ağızda yara yaranmasına səbəb olur.*[92]

Əziz oxucu! Beləcə sənə aydın oldu ki, sələfilərin nəzərində torpaq yeməyin haramlığını deyən bütün hədislərin sənədləri zəifdir. Onların əlində torpaq və palçıq yeməyi haram edən sənədi düzgün, heç bir irad və nöqsanı olmayan və kökü gedib Peyğəmbərə (s) çıxan bir hədis belə yoxdur.

---

[92] *İbn əl-Cəuziyyə, Zadd əl-məad fi huda xəyr əl-ibad, Peyğəmbərin (s) dilindən çıxan bəzi dərman və qidalar fəsli; c.4, s.309*

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. *Rağib İsfəhani, Müfrədatın tərcüməsi*
2. *Fərhənge əbcədi ərəbi-farsi*
3. *Şeyx Muhəmməd Həsən ən-Nəcəfi, Cövhər əl-kəlam fi şərh şəraih əl-islam, Dar əl-Kutub əl-İslamiyyə, Tehran, 1363 ş.; təhqiq, təlif və təshih: Mahmud Qoçani*
4. *Mühəqqiq əs-Səbzəvari (vəfat 1090 h.), Kifayə əl-fiqh, təhqiq: Şeyx Murtəza əl-Vaizi əl-Əraki*
5. *Hürr əl-Amili, əl-Fusul əl-muhimmə fi usul əl-Əimmə, Müəssisə Marif İslami İmam Rza (ə.s), 1418/1998; təhqiq: Muhəmməd bin Muhəmməd əl-Huseyn əl-Qaini*
6. *Şeyx Hadi ən-Nəcəfi, Mövsuat əhədis Əhl əl-Beyt (ə.s), Dar İhya ət-Turas əl-Ərəbi, Beyrut, 1423/2002*
7. *Seyyid Muhəmməd Sadiq ər-Ruhani, Fiqh əs-Sadiq, Muəssisə Dar əl-Kitab, Qum, 1414/1994*
8. *Əbu əl-Qasim ibn Qəvləveyh əl-Qummi (vəfat 367 h.), Kamil əz-ziyarət, təhqiq: Şeyx Cavad əl-Qəyyumi, 1417/1997*
9. *Əbu Cəfər əl-Kuleyni, Üsul min əl-Kafi, İslamiyyə, Tehran; 1404/1984*
10. *Şeyx əs-Səduq (vəfat 381 h.), Uyun əxbar ər-Rza (ə.s), Müəssisə əl-İslami əl-Mətbuat, Beyrut, 1404/1984; təhqiq: Şeyx Hüseyn əl-Aləmi*
11. *Şeyx Əbu Cəfər ət-Tusi (h. 460), əl-Əmali, Dar əs-Səqifə, Qum, 1414/1994*
12. *Şeyx əl-Mufid (vəfat 413 h.), əl-Məzar, Dar əl-Mufid lil-Tiba vəl-Nəşr vəl-Təuzi, Beyrut, 1414/1993*
13. *Həsən ibn Fəzl əl-Təbərsi (vəfat 548 h.), Məkarim əl-Əxlaq, Şərif Razi, Qum, 1392/1972*

14. *əl-Hürr əl-Amili, Təfsil Vəsail əş-Şiə ila təhsil əş-şəria, Muəssisə Al əl-Beyt (ə.s) İhya ət-Turas, 1414/1994*
15. *Muhəmməd bin İsmayıl əl-Buxari (vəfat 256 h.), əl-Cami əs-Səhih, Dar İbn Kəsir, Beyrut; təhqiq: Mustafa Dib əl-Buğa; 1407/1987*
16. *Əli b. Musa əl-Beyhəqi (vəfat 458 h.), Şuəb əl-İman, Dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1410; təhqiq: Muhəmməd b. əs-Səid Bəsyuni Zəğlul*
17. *ən-Nəvəvi, Şərh Səhih Müslim, Dar İhya ət-Turas əl-Ərəbi, Beyrut, 1392*
18. *Müslim bin əl-Həccac əl-Neysəburi (vəfat 261 h.), əl-Müsnəd əs-səhih bi nəqlil ədli, Dar İhya ət-Turas əl-Ərəbi, Beyrut; təhqiq: Muhəmməd Fuad Əbdul-Baqi*
19. *Nurəddin əl-Heysəmi, Kəşf əl-Əstar an Zəvaid əl-Bəzzar ala əl-Kitab əs-Sittə, Müəssisə ər-Risalə, Beyrut; 1399/1979; təhqiq: Həbib ər-Rəhman əl-Azami*
20. *Əbd əl-Malik bin Muhəmməd əs-Saləbi (vəfat 429 h.), Fiqh əl-Luğət*
21. *İbn Həcər əl-Əsqəlani, əl-Mətalib əl-aliyyə bi-zəvaid əl-məsanid əs-səmaniyyə, Dar əl-Asimə/Dar əl-Ğəys, əl-Əulə, əs-Səudiyyə, 1419/1999*
22. *Əhməd bin Hənbəl, əl-Musnəd, Muəssisə Qurtubə, Misir*
23. *ət-Təbərani, Mucəm əl-Əusət, Dar əl-Hərəmeyn, Qahirə, 1415; təhqiq: Tariq b. Əvəzullah b. Muhəmməd və Əbdul-Muhsin b. İbrahim əl-Huseyni*
24. *ət-Təbərani, əl-Mucəm əl-Kəbir, Məktəbə əz-Zəhra, Mosul, 1404/1983; təhqiq: Həmdi b. Əbdul-Məcid əs-Sələfi*
25. *Cəmaluddin əs-Suyuti (vəfat 911 h.), əl-Fəth əl-qədir fi dəmm əz-ziyadə ila əl-Cami əs-Sağir, Dar əl-Fikr, Beyrut, 1423/2003; təhqiq: Yusif ən-Nəbhani*

26. *əl-Zaid əl-Məkki əl-Hənəfi, Tarix Məkkə əl-Mukərrəmə və Məscid əl-Həram, Dar əl-Naşir, Beyrut, 1424/2004*
27. *Şueyb bin Əli ən-Nəsai (vəfat 303 h.), əs-Sünən əl-kubra, Dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1411/1991; təhqiq: Əbdül-Ğəffar Süleyman əl-Bəndari, Seyyid Kəsrəvi Həsən*
28. *əl-Hakim ən-Nisaburi, Müstədrək əla əs-Səhiheyn, Dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1411/1990; təhqiq: Mustafa Əbdul-Qadir Ata*
29. *əl-Haris bin Əbi Usamə/əl-Hafiz Nurəddin əl-Heysəmi, Buğyat əl-bahis ən zəvaid Musnəd əl-Haris, c.2, s.579; Mərkəz Xidmət əs-Sunnə vəl-Siyər ən-Nəbəviyyə, Mədinə, 1413/1992; təhqiq: Huseyn Əhməd Salih əl-Bakiri*
30. *Əbd ər-Rəhman bin Muhəmməd bin Əhməd ən-Nisaburi (vəfat 420 h.), Fəvaid Əbi Əli bin Fəzələ*
31. *Əbd əl-Kərim bin Muhəmməd əl-Qəzvini (vəfat 623 h.), ət-Tədvin fi əxbar Qəzvin, Dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1987; təhqiq: Əzizullah əl-Utaridi*
32. *Əbd ər-Rəhman bin əl-Əuzi, əl-İləl əl-mutənahiyə fi əl-əhədis əl-vəhiyə, Dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1403; təhqiq: Xəlil əl-Meys*
33. *İbn Kəsir əd-Diməşqi (vəfat 774 h.), əl-Bidayə vən-Nihayə, Məktəbə əl-Marif, Beyrut*
34. *İbn Nasir əd-Din əd-Diməşqi, ər-Rədd əl-vafir əla min zama ənnə min səmma İbn Teymiyyə Şeyxul-İslam kafir, Mətbəə Kurdustan əl-İlmiyyə, Misir, 1329/1909*
35. *Şəms əd-Din əz-Zəhəbi (vəfat 748 h.), Siyər əlam ən-nubəla, Muəssisə ər-Risalə, Beyrut, 1413; təhqiq: Şueyb əl-Ərnaut*
36. *İbn Həzm, əl-Muhəlla, əl-Mətbəə əl-Muniriyyə, əl-Qahirə, 1352/1932; təhqiq: Əhməd Muhəmməd Şakir*
37. *İbn Qudamə, əl-Muğni, Mətbəə əl-Mənar, əl-Qahirə*

38. *ən-Nəvəvi, əl-Məcmu, əl-Məktəbə əl-İrşad, Ciddə; təhqiq: Muhəmməd Nəcib əl-Mutii*
39. *Muhəmməd ət-Turi əl-Qadiri, Təkmilət əl-bəhr ər-raiq*
40. *əl-Bəhuti, Kəşf əl-qina, Dar əl-Kutub əl-İlmiyyə, Beyrut*
41. *Əbd əl-Kərim ər-Rafii, Fəth əl-əziz, Dar əl-Fikr, Beyrut*
42. *İbn Teymiyyə, Məcmu əl-fətava, Kral Fəhd adına Quran Nəşriyyatı Kompleksi, Mədinə, 1425/2004; təhqiq: Əbd ər-Rəhman bin Muhəmməd bin Qasim*
43. *əl-Beyhəqi, əs-Sünən əl-kubra, Dar əl-Kutub əl-İlmiyyə, Beyrut, 1424/2003; təhqiq: Muhəmməd Əbd əl-Qadir Ata*
44. *İbn Həcər əl-Əsqəlani, ət-Təlxis, Muəssisə Qurtubə, Qahirə, 1416/1995; təhqiq: Həsən bin Abbas bin Qutb*
45. *Nasir əd-Din əl-Albani, Silsilət əz-zuafə və əl-məuzuə, Məktəbə əl-Məarif, ər-Riyad, 1421/2000*
46. *İbn əl-Cəuzi, əl-Məuzuat, Məktəbə əs-Sələfiyyə, Mədinə, 1388/1968; təhqiq: Əbd ər-Rəhman Muhəmməd Usman*
47. *əl-Əcluni, Kəşf əl-xifa, Məktəbə əl-Qudsi, Qahirə, 1351/1930 və Məktəbə əl-İlm əl-Hədis, Dəməşq; təhqiq: Yusif bin Mahmud əl-Hacc*
48. *əz-Zəhəbi, Təzkirət əl-huffaz, Dairə əl-Məarif əl-Usmaniyyə, Hindistan, 1374/1953; təhqiq: Əbd ər-Rəhman bin Yəhya əl-Mualimi*
49. *İbn əl-Cəuziyyə, Zadd əl-məad fi huda xəyr əl-ibad, Müəssisə ər-Risalə, Beyrut, 1417/1996; təhqiq: Şueyb əl-Ərnaut və Əbd əl-Qadir əl-Ərnaut*